

Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

AZƏRBAYCAN VERGİLƏR NAZİRLİYİ

№ 35 (675) ▪ 11 sentyabr 2013 www.vergiler.az Qiyməti: 40 qəp.

# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bölgələrə səfər etmişdir





*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 10-da Yevlax şəhərinə səfərə gəlmişdir. Dövlətimizin başçısı əvvəlcə ulu öndər Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət etmişdir. Dövlətimizin başçısına parkda və rayonda görülmüş abadlıq-quruculuq işləri barədə məlumat verilmişdir.*

Sonra Prezident İlham Əliyev Yevlax hava limanının açılışında iştirak etmişdir. Bildirilmişdir ki, milli aviasiyamızın tarixində mühüm yer tutan Yevlax hava limanı istismar olunduğu dövrdə inkişafının iki böyük mərhələsini yaşamışdır. Birinci mərhələ 1978-1980-ci illərdə ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə respublikanın fəal aerofikasiyasının aparıldığı dövrə təsadüf edir. Həmin vaxt hava limanının fəaliyyəti təkmilləşdirilmiş, kənd təsərrüfatı aviasiyasının təmin edilməsi üçün baza yaradılmışdı. Bu çərçivədə uzunluğu 1600, eni 35 metr olan uçuş-enmə zolağı yenidən qurulmuş, işıq-siqnal sistemi ilə təchiz edilmiş, uzaq və yaxın ötürücülər, radiomayak, pelenqator və dispetçer radiolokatoru quraşdırılmışdı. Bu, «Yak-40» reaktiv təyyarələrinin gecə-gündüz qəbulunu təmin etməyə və hava gəmilərində Bakı-Yevlax-Bakı, Yevlax-Naxçıvan-Yevlax, Yevlax-Minvod-Yevlax istiqamətlərində uçuşların açılmasına imkan vermişdi. Sərnişinlərə xidmət göstərilməsi üçün saatda 100 sərnişin buraxılış qabiliyyəti olan aerovağzal binası da inşa olunmuşdu. Həmin vaxtlar perronda, eyni zamanda, 4 «Yak-40» təyyarəsi yerləşə bilirdi.

Hava limanı Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində öz inkişafının yeni mərhələsinə qədəm qoymuş, bu ilin martından başlayan tikinti-quraşdırma işləri nəticəsində ən müasir standartlara uyğun yenidən qurulmuşdur. Burada həyata keçirilən işlər ölkəmizdə gedən inkişaf proseslərinin əyani sübutudur. Hava limanının texniki-iqtisadi göstəriciləri barədə məlumat verilərkən diqqətə çatdırılmışdır ki, yenidənqurma işləri nəticəsində 2520 metr uzunluğunda, 40 metr enində, ümumi sahəsi 105 min kvadratmetr olan asfalt-beton örtüklü yeni uçuş-enmə zolağı salınmışdır.

Qeyd olunmuşdur ki, vağzalyanı meydan abadlaşdırılmış, 60 avtomobil tutumlu dayanacaq tikilmişdir. Hava limanının fasiləsiz elektrik enerjisi ilə təmin edilməsi üçün transformator məntəqəsi inşa olunmuş, 1300 metr uzunluğunda 10 kilovoltluq iki elektrik xətti çəkilmişdir. Bundan əlavə, radionaviqasiya sistemlərinin və işıq-siqnal avadanlığının elektrik enerjisi ilə təmin olunması üçün transformator məntəqəsi tikilmiş və 250 kilovolt gücündə dizel generatoru quraşdırılmışdır. Burada təhlükəsizliyin təmin olunması üçün aeroport boyu 9 kilometr uzunluğunda mühafizə hasarı çəkilmişdir. Uçuşların təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə Yevlax hava limanında Beynəlxalq Mülki Aviasiya Təşkilatının tələb və normalarına cavab verən, Avropa istehsalı olan radio və meteoavadanlıq - enmə sistemi, meteosistem, hava hərəkətini idarəetmə sistemi və rabitə sistemi quraşdırılmışdır. Bir çox iritutumlu təyyarələri qəbul etmək gücündə olan Yevlax hava limanı sərnişin daşımaları ilə yanaşı, ölkəmizdə kənd təsərrüfatının inkişafında da mühüm rol oynayacaqdır. Hava limanına yeni yol salınmış, böyük abadlıq işləri görülmüşdür.

Həmin gün Azərbaycan Prezidenti Yevlax Şəhər Mərkəzi Xəstəxanasının açılışında da iştirak etmişdir. Dövlətimizin başçısına bildirilmişdir ki, inşasına 2012-ci ilin martında başlanan xəstəxananın ərazisi 4,3 hektar, tikinti sahəsi 18,6 min kvadratmetrdir. Buradakı 6 blokun üçü dördmərtəbəli, digər üç blok isə üçmərtəbəlidir. Tibb ocağında poliklinika, yoluxucu xəstəliklər, şüa-diaqnostika, qadın məsləhətxanası və ailə planlaşdırma, doğum, qəbul, laboratoriya, urologiya, cərrahiyə, travmatologiya, hemodializ şöbələri fəaliyyət göstərir. Bundan əlavə, xəstələr ginekologiya, sterilizasiya, anesteziologiya, reanimasiya, lor, oftalmologiya, daxili xəstəliklər şöbələrinin xidmətlərindən də istifadə edə biləcəklər. Burada müxtəlif cərrahiyyə əməliyyatlarının aparılması üçün hər cür şərait yaradılmışdır. Ən müasir avadanlığın quraşdırıldığı bu tibb ocağında kompüter tomoqrafiyası, rəqəmsal rentgen, flüoroqraf, 4D və 3D ultrasəs müayinə aparatları, oftalmoloji kombayn və digər müasir qurğular vasitəsilə xəstələrə keyfiyyətli tibbi xidmət göstəriləcəkdir.

Prezident İlham Əliyev Bakı-Qazax magistralı-Səmədabad-Qaraməmmədli-Qaramanlı-Göyük avtomobil yolunun açılışında da iştirak etmişdir. Qeyd olunmuşdur ki, ümumi uzunluğu 25 kilometr olan yolun çəkilişinə bu ilin iyulunda başlanılmışdır. Azərbaycan Prezidentinin müvafiq sərəncamı ilə yolun tikintisinə ilkin olaraq 3 milyon manat vəsait ayrılmışdır. Artıq bu yolun 5,5 kilometrlik hissəsinin tikintisi başa çatdırılmışdır. Böyük iqtisadi əhəmiyyəti olan bu avtomobil yolu 8300 nəfərin yaşadığı 11 kəndi əhatə edir. Artıq Qaramanlı və digər kəndlərə məsafə 23 kilometr qısalmışdır.

Prezident İlham Əliyev sentyabrın 10-da Bərdə şəhərinə gəlmişdir. Ölkə rəhbəri rayonda 866 məcburi köçkün ailəsi üçün yeni salınan beşmərtəbəli 15 yaşayış binasından ibarət məhəllə ilə tanış olmuşdur. Dövlət başçısına bildirilmişdir ki, zəruri avadanlıqla təchiz olunan bağçada balacaların təlim-tərbiyəsi üçün bütün tələblər nəzərə alınmışdır. Binada tikinti işləri yüksək səviyyədə həyata keçirilmişdir. Bağçada uşaqların istirahəti üçün hər cür şəraitin yaradıldığı qeyd olunmuşdur. Həyətyanı sahədə də abadlıq tədbirləri görülmüş, uşaqlar üçün xüsusi guşələr yaradılmış, müasir işıqlandırma sistemi qurulmuşdur.

540 yerlik Ağdam rayon 1 nömrəli məcburi köçkün tam orta məktəbində yaradılmış şəraitlə də tanış olan Prezident İlham Əliyevə bu təhsil müəssisəsi barədə məlumat verilmiş, bildirilmişdir ki, yüksək şəraiti ilə seçilən, müasir təlim avadanlığı ilə diqqət çəkən bu təhsil ocağında təlim-tədris üçün hər cür şərait yaradılmışdır. Dövlətimizin başçısı daha sonra Ağdam rayonundan məcburi köçkün, şəhid ailəsi Səfurə Hüseynovanın mənzilində olmuşdur.

Həmin gün Prezident İlham Əliyev Naftalan şəhərində də olmuşdur. Dövlətimizin başçısı əvvəlcə Naftalan şəhərinin mərkəzində ulu öndər Heydər Əliyevin abidəsini ziyarət etmiş və önünə gül dəstəsi qoymuşdur.

Prezident İlham Əliyevə abidənin yerləşdiyi Heydər Əliyev parkında, eləcə də Naftalanda aparılan abadlıq-quruculuq işləri, inşası davam edən, layihəsi planlaşdırılan tikinti kompleksləri barədə məlumat verilmişdir. Bildirilmişdir ki, ümumi ərazisi 4 hektar olan bu istirahət məkanında fəvvarə, müasir işıq dirəkləri və oturacaqlar qoyulmuş, yaşıllıq zolağı salınmışdır. Son illərdə bu park istirahət üçün sakinlərin ən çox üz tutduqları məkanlardan birinə çevrilmişdir.

Daha sonra ölkə başçısı Naftalanda Heydər Əliyev Mərkəzinin açılışında iştirak etmişdir. Dövlətimizin başçısına bildirilmişdir ki, Mərkəzin yaradılması Azərbaycanın bütün bölgələri kimi, Naftalanın da inkişafına daim diqqət və qayğı göstərən ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətinin, zəngin dövlətçilik irsinin öyrənilməsi məqsədinə xidmət edir. Şəhərin Heydər Əliyev Parkında yerləşən Mərkəzin inşasına ötən ilin avqustunda başlanılmış, bu ilin sentyabrında başa çatdırılmışdır. Mərkəzdə müxtəlif tədbirlərin keçirilməsi üçün 120 nəfərlik konfrans zalı, elektron kitabxana, xarici dil kursları, internet otağı, rəsm qalereyası və kiçik konfrans zalı da yaradılmışdır.

Prezident İlham Əliyev Naftalanda «Qarabağ» sanatoriyasında tikinti işlərinin gedişi ilə də tanış olmuşdur. Dövlətimizin başçısının diqqətinə çatdırılmışdır ki, sanatoriyanın ümumi sahəsi 5 hektardır. Tikintisinə 2012-ci ildə başlanılan sanatoriyanın binası beşmərtəbəli olacaqdır. Burada 264 yerlik 132 nömrənin yaradılması nəzərdə tutulur. İnşaat işləri başa çatdıqdan sonra burada həm yerli, həm də xaricdən gələn qonaqların istirahəti üçün hər cür şərait yaradılacaqdır. Azərbaycan Prezidenti tikinti işlərinin vaxtında və keyfiyyətlə aparılması ilə bağlı tapşırıqlarını vermişdir.

Dövlətimizin başçısı daha sonra Naftalan şəhərinə içməli suyun verilməsi mərasimində iştirak etmiş, Naftalan şəhər ictimaiyyətinin nümayəndələri ilə görüşmüşdür. Sonra dövlətimizin başçısı «Naftalan şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması» layihəsini əks etdirən stendlərə baxmışdır. Dövlətimizin başçısının diqqətinə çatdırılmışdır ki, «Naftalan şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması» layihəsi Azərbaycan hökuməti ilə Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyinin birgə maliyyələşdirdiyi «Kiçik şəhərlərdə su təchizatı və kanalizasiya layihəsi» çərçivəsində həyata keçirilir.

Layihəyə uyğun olaraq Naftalan şəhərinə və ətraf kəndlərə içməli su yeni mənbədən - Ballıqayadan verilir. Şəhərin dayanıqlı su təchizatı üçün Ballıqaya-Goranboy kəmərindən 8 kilometr uzunluğunda magistral su xətti çəkilmiş, hər birinin həcmi 3 min kubmetr olan iki anbar tikilmişdir. Layihəyə əsasən, şəhərə saniyədə 54 litr su gətirilir və bu da istehlakçıların tələbatını tam ödəməyə imkan verir.

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Gədəbəy rayonuna gəlmişdir. Dövlətimizin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin Gədəbəy şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoymuşdur.

Sonra Prezident İlham Əliyev Gədəbəy Aşıq Musiqisi Məktəbinin açılışında iştirak etmişdir. Əvvəlcə rayon ictimaiyyətinin nümayəndələri ilə görüşən dövlətimizin başçısı onlar qarşısında çıxış etmişdir. Sonra Prezident İlham Əliyev Gədəbəy Aşıq Musiqisi Məktəbinin rəmzi açılışını bildirən lenti kəsmiş, burada yaradılan şəraitlə tanış olmuşdur.

Bu musiqi ocağının təməli 2009-cu ildə Prezident İlham Əliyev tərəfindən qoyulmuşdur. Binanın həyətində Aşıq Ələsgərin heykəli ucaldılmışdır. Foyedə ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin mədəniyyətin inkişafına və Gədəbəyə səfərlərini əks etdirən fotolardan ibarət guşə yaradılmışdır. Dövlətimizin başçısı Aşıq Musiqisi Məktəbində yaradılmış şəraiti yüksək qiymətləndirmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev həmin gün Gədəbəydə Çolpan çayı üzərindəki körpünün açılışında iştirak etmişdir. Dövlətimizin başçısı körpünün yerləşdiyi avtomobil yolunun sxematik planı ilə tanış olmuşdur. Məlumat verilmişdir ki, körpü Gədəbəy şəhərinin girişində, Şəmkir-Gədəbəy magistral avtomobil yolunun 42-ci kilometrliyində yerləşir. Çolpan çayı üzərində 1988-ci ildə tikilən üçaşırımlı, 60 metr uzunluğunda olan körpü uzunmüddətli istismardan və təbii aşınmalardan sonra qəzalı vəziyyətə düşmüşdü. Gədəbəy şəhərinə giriş üçün alternativ yol olmadığından yeni körpünün tikilməsinə zərurət yaranmışdı. Körpünün tikintisinə 2012-ci ilin noyabrında başlanılmış, bu ilin sentyabrında başa çatdırılmışdır. Körpünün uzunluğu 95 metr, eni isə 14 metrdir.

Sonra Prezidenti İlham Əliyev Gədəbəydə «Azerbaijan International Mining Company Limited» şirkətinin yeni zavodunun açılışında iştirak etmişdir. Bildirilmişdir ki, yeni zavodun tikintisinə ötən il başlanılmış, bu ilin iyununda başa çatdırılmışdır. Zavodda saatda 100-150 ton filiz emal olunur. Köhnə zavodda filizin tərkibindən 70 faiz qızıl alınırdısa, yeni müəssisədə bu göstərici 85 faiz təşkil edir. Bu zavodda sulfidli filiz emal olunacaqdır ki, köhnə müəssisədə bu proses həyata keçirilə bilmirdi. Yeni müəssisənin fəaliyyəti nəticəsində ətraf mühitə kimyəvi maddələrin yayılmasının təsiri azalacaqdır. Bu məqsədlə anbar tikilmiş və tullantıların oraya axıdılması üçün xüsusi mühafizə olunan boru xətti çəkilmişdir.

Müəssisədə yaradılmış şəraiti yüksək qiymətləndirən Prezident İlham Əliyev zavodu işə salmışdır.

Həmin gün dövlət başçısı Gədəbəydə «Halal Qida» süd emalı zavodu və tərəvəz məhsullarının tədarükü, saxlanılması və satışı kompleksi ilə tanış olmuşdur. Prezident İlham Əliyev yaradılmış şəraitdən razılığını bildirmiş, tapşırıq və tövsiyələrini vermişdir.

2 | İnnovasiya sahəsində daha bir yenilik: e-pasport

3 | Azərbaycanda baş verən müsbət dəyişikliklərlə bağlı təəssürratım çox yüksəkdir

4 | Əmək qanunvericiliyinin pozulması vergidən yayınmaya səbəb olur

5 | Azərbaycan rəqabətqabiliyyətli ölkə kimi mövqeyini gücləndirir

# İnnovasiya sahəsində daha bir yenilik: e-pasport

*Məlum olduğu kimi, Azərbaycanın yeni nəsil şəxsiyyət vəsiqəsinin (biometrik pasport) ilk nümunəsi ötən həftə Prezident İlham Əliyevə təqdim edildi. Bununla da ölkəmizdə biometrik pasportların verilməsi prosesinə başlanılıb.*

Vətəndaşların, demək olar ki, böyük əksəriyyətini yeni sənədin xüsusiyyətləri ilə bağlı çoxlu məsələlər düşündürür. Onlar biometrik pasportların hazırkı şəxsiyyət vəsiqəsindən və xarici pasportlardan fərqi, üstünlükləri, sənədin alınması qaydaları barədə məlumat əldə etməyə çalışırlar. İnsanları ən çox düşündürən məsələ isə hazırkı pasportların taleyi ilə bağlıdır, yəni onların müddəti başa çatmamış yenisini almaq vacibdirmi və s. suallar meydana çıxıb.

Məsələ ilə bağlı bir neçə dövlət strukturunun nümayəndələrinin fikirlərini təqdim etməyə ehtiyac var.

Biometrik pasportlar «Elektron Hökumət» proqramının və Beynəlxalq Mülki Aviasiya Təşkilatının tələblərindən irəli gələrək hazırlanıb. Şəxsiyyəti təsdiq edən yeni nəsil biometrik sənədlərin tətbiqi məqsədilə İqtisadi İnkişaf Nazirliyi (İİN) tərəfindən aidiyyəti dövlət orqanlarının mütəxəssislərindən ibarət İşçi Qrup yaradılıb, bu sahədə beynəlxalq səviyyədə tanınmış şirkətlərin təcrübəsi və əldə olunan nailiyyətlər öyrənilib, pasportların təsviri və spesifikasiyası hazırlanıb.

İİN-dən verilən xəbərə görə, yeni nəsil pasportlar elektron daşıyıcısı (çip) olan elementlərə malikdir. Burada vətəndaşın biometrik texnologiyalar əsasında bütün əlamətləri və fizioloji xüsusiyyətləri təsvir olunub. Barmaq izi, gözün torlu və qüzehli qişaları, sifət şəkli, əlin həndəsəsi, ovucun şəkli, bədənin qoxusu, qulaqların forması, termoqramlar, DNT, səs, əl imzası, dodaqların hərəkəti, klaviatura xətti, yerişi və s. sənəddə xüsusi cizgilərlə öz əksini tapıb. Ölkədə İKT xidmətlərindən istifadə genişləndikcə, informasiya təhlükəsizliyi riskləri də artır. Bu məqsədlə sərhəd-keçid zonalarında yeni biotexnologiyalara ehtiyac yaranır. Biometrik pasportlar saxta sənədlərlə sərhədi keçmək niyyətində olan şəxslərin qarşısının alınması üçün yeni texnologiyadır. Biometrik eyniləşdirmə sisteminin yaradılmasında əsas məqsəd isə ölkənin milli təhlükəsizlik sisteminin daha güclü və etibarlı müdafiəsini təmin etməkdən ibarətdir. Biometrik informasiya vasitəsilə qanunsuz miqrasiya və cinayətkarlıq, kibercinayətkarlıq, terrorçuluq, digər halların qarşısını dərhal almaq mümkün olur.




Yeni pasportlar biometrik xarakteristikalara əsaslandığı üçün saxtalaşdırmaq çətindir. Bu pasportun loqosu bütün aeroportlarda və tranzit portlarda xüsusi oxuyucu qurğularla təchiz edilmiş sərhəd nəzarəti keçidlərində göstərilir və loqo beynəlxalq işarə hesab olunur, sənədin xüsusi çipə malik olduğu təsdiqlənir. Pasportlar vətəndaşların daha etibarlı eyniləşdirilməsinə (tanınmasına, identifikasiyasına) imkan verir.

Ümumvətəndaş pasportlarının hazırlanması və verilməsi məqsədilə 9 regional mərkəz yaradılıb. «ASAN xidmət» Mərkəzindən qəzetimizə verilən məlumatlara görə, biometrik pasportlar hazırkı pasportların müddəti başa çatandan sonra alınmalıdır. Yəni vətəndaşlar ümumvətəndaş pasportunun müddəti başa çatanadək xarici ölkələrə səfərlərində ondan istifadə edə bilərlər. Hazırkı pasportların müddəti bitdikdən sonra vətəndaşa biometrik pasport veriləcək. Eləcə də şəxsiyyət vəsiqəsinin dəyişdirilməsinə ehtiyac yoxdur. Pasportların qiymətləri sənədin alınma müddətindən asılı olaraq dəyişir. Yeni pasportların əsas fərqlərindən biri onların uşaqlara verilməsinin tətbiq olunmasıdır. Sənəd üçün ödəniləcək rüsumlar uşaqlar üçün aşağı məbləğdə müəyyən olunub. Belə ki, 1 yaşınadək uşaqlar üçün biometrik pasportlar 10 iş günü ərzində verilirsə 10 manat, 5 iş günü ərzində 20 manat, 1 iş günü ərzində 40 manat rüsum ödənilmədir. 1-3 yaş arası uşaqlara görə 10 iş günü üzrə 20 manat, 5 iş günü üzrə 40 manat, 1 gün üzrə isə 80 manat rüsum ödənilir. 3 yaşdan 18 yaşadək uşaqlar üçün biometrik pasportlar 10 iş günü ərzində verilirsə 30 manat, 5 iş günü ərzində 60 manat, 1 iş günü ərzində isə 120 manat rüsum tələb olunur. 18 yaşdan yuxarı vətəndaşlar üçün isə rüsumlar dəyişmir. Belə ki, vətəndaş pasportu 10 günə almaq istəsə 40 manat ödəyəcək. Əgər 5 gün ərzində almaq istəyirsə 80 manat, 1 günə istəyirsə 160 manat rüsum ödəməli olacaq.

Hüquqşünas, Konstitusiya Araşdırmaları Fondunun rəhbəri Əliməmməd Nuriyevin sözlərinə görə, dünya ölkələrinin əksəriyyəti biometrik pasportları «e-pasport» ( «elektron pasport») kimi təqdim edir. Yəni bu sənədlər elektron daşıyıcıya malik olduğundan, xüsusiyyətlərinə görə, İKT-nin ən son yeni nəsil vasitələrini özündə əks etdirir, e-xidmətlərin tətbiqinin bir nümunəsi kimi qiymətləndirilir. Ümumiyyətlə, biometrik texnologiyalar dövlətin yeni elektron xidmətlər şəbəkəsinin tərkib hissəsi olmaqla informasiya texnologiyalarının insan həyatına geniş nüfuzunun göstəricisi sayıla bilər. Cəmiyyətdə elektron vasitələrdən istifadənin geniş miqyas alması onların İK texnologiyalarından daha səmərəli istifadəsinə və bürokratik əngəllərin aradan qalxmasına səbəb olur.

Ölkəmizdə vətəndaşlara müasir texniki xidmətin ən yüksək dünya standartları səviyyəsində göstərilməsi sahəsində də məqsədyönlü tədbirlər görülür. İlk biometrik pasportun hazırlanması da bu istiqamətdə atılan mühüm addımlardan biridir. Məqsəd dövlət orqanları tərəfindən vətəndaşlara göstərilən xidmətlərin çeşidinin yüksəldilməsi, bu istiqamətdə görülən işlərin operativ həlli və bürokratik əngəllərin aradan qaldırılmasından ibarətdir. Biometrik texnologiyaların tətbiqi sayəsində vətəndaşlar tamamilə bürokratik maneələrdən azad olur, sənəd təqdim etmələri və digər məsələlərlə bağlı işlərini asanlaşdırır. Bu texnologiyaların geniş tətbiqi nəticəsində birbaşa şəxsiyyəti təsdiq edən pasport, viza və digər sənədlərin əldə olunması şəffaf və operativ şəkildə həyata keçirilir, bu isə birbaşa elektron xidmətlərdən istifadə sayəsində mümkün olur. Ona görə də yeni nəsil pasportlar e-hökumətin identifikasiya sisteminin ən vacib komponenti kimi yüksək qiymətləndirilmişdir.

**ELBRUS**

# Vətəndaş müraciətlərinin sayı artır

*2013-cü ilin avqust ayında dövlət vergi orqanlarına cəmi 4660 müraciət daxil olmuşdur və bu da ötən ilin avqust ayı ilə müqayisədə 1270 müraciət və ya 27,2% çoxdur.*

Daxil olmuş müraciətlərdən 4570-i (98%-i) ərizə, 82-si (1,8%-i) şikayət, 8-i (0,2%-i) təklif olmuşdur. Müraciətlərin 37,4%-i kameral vergi yoxlamaları, 26,7%-i müxtəlif arayışların alınması, 8,1%-i vergi borcları, 0,3%-i vergi orqanlarının vəzifəli şəxslərinin hərəkəti (hərəkətsizliyi), 0,2%-i korrupsiya hüquqpozmaları, 27,3%-i digər məsələlərlə bağlıdır.

Müraciətlərin ümumi sayından 56%-i müsbət həll olunmuş, 8,4%-i barədə müvafiq izahat verilmiş, 2,4%-i əsassız sayılmış, 0,6%-i qismən həll olunmuş, 0,9%-i aidiyyəti üzrə göndərilmiş, 31,7%-i icradadır.

Hesabat dövründə vergi orqanlarına daxil olmuş şikayətlərin 22-si eyni, 8-i təkrardır, yəni faktiki olaraq şikayətlər cəmi 52 məsələ barədədir. Daxil olan faktiki şikayətlərin sayı ötən ilin avqust ayına nisbətən 6 ədəd və ya 15,5% artmışdır.

Ümumilikdə şikayətlərin 17-si (20,7%-i) əsassız sayılmış, 19-u (23,2%-i) barədə müvafiq izahat verilmiş, 1-i (1,2%-i) aidiyyəti üzrə göndərilmiş, 7-si (8,5%-i) müsbət həll olunmuş, 38-i (46,4%-i) icradadır.

Hesabat dövründə nazirliyin aparatına 422 müraciət, o cümlədən 356 ərizə, 66 şikayət daxil olmuş, 13 şikayətin icrası xüsusi nəzarətə götürülmüşdür. Daxil olan şikayətlərin 20-si eyni,7-si təkrardır, yəni faktiki olaraq şikayətlər cəmi 39 məsələ ilə bağlıdır. Ötən ilin avqust ayı ilə müqayisədə nazirliyin aparatına daxil olan müraciətlərin ümumi sayı 116 ədəd (27,5%) artmış, şikayətlərin faktiki sayı isə dəyişməmişdir.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasından nazirliyin aparatına 21 müraciət, o cümlədən 12 ərizə, 9 şikayət daxil olmuşdur. Ötən ilin avqust ayı ilə müqayisədə bu müraciətlərin ümumi sayı 3 ədəd artmış, şikayətlərin sayı dəyişməmişdir.

Hesabat dövründə vergi orqanlarına daxil olmuş müraciətlərə qanunla müəyyən olunmuş müddətlərdə baxılması təmin edilmiş, cəmi 5 müraciət gecikmə ilə icra olunmuşdur.

2013-cü ilin avqust ayı ərzində Vətəndaşların qəbulu şöbəsi tərəfindən 46 nəfər qəbul edilmişdir. Həmin vətəndaşların müraciətlərinin 6-sı vergi orqanlarında işə qəbul olunma, 2-si iş yerinin dəyişdirilməsi, 1-i vergi orqanlarının vəzifəli şəxslərinin hərəkətlərindən (hərəkətsizliklərindən) şikayət, 37-si maddi yardım almaq, şəxsi və digər məsələlərlə əlaqədar olmuşdur.

Vergilər naziri cənab Fazil Məmmədov avqust ayının 23-də Şirvan şəhərində 62 nəfər vətəndaşı qəbul etmişdir. Onlardan 34-nün müraciəti vergi inzibatçılığı, 10-u işə qəbul, 18-i isə maddi yardım, şəxsi və digər məsələlər barədə olmuşdur.

# Operativ nəzarət tədbirləri

2013-cü ilin avqust ayı ərzində əhali ilə nağd pul hesablaşmalarının aparılması qaydalarına riayət olunması, nəzarət-kassa aparatlarından istifadə, vergi orqanlarında uçota durmadan fəaliyyət göstərən vergi ödəyicilərinin aşkarlanması və s. kimi operativ nəzarətin əhatə funksiyalarına daxil olan məsələlər üzrə vergi orqanları tərəfindən keçirilmiş tədbirlər zamanı 3114 vergi ödəyicisində qanunvericiliyin pozulması faktları aşkar edilmişdir.

1774 vergi ödəyicisi tərəfindən nağd hesablaşmaların aparılması qaydalarının pozulduğu, 349 vergi ödəyicisi tərəfindən qanunla nəzərdə tutulmayan valyutanın ödəniş vasitəsi kimi qəbul olunduğu, valyutanın ticarət, iaşə və xidmət müəssisələrində qanunsuz alınıb-satıldığı və ya dəyişdirildiyi, 151 vergi ödəyicisinin vergi orqanlarında uçota durmadan fəaliyyət göstərdiyi, 284 vergi ödəyicisinin xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növləri ilə belə razılıq (lisenziya) almadan məşğul olduğu müəyyən edilmişdir.

Operativ nəzarət tədbirləri zamanı 437 vergi ödəyicisi tərəfindən 695 fiziki şəxsin əmək müqaviləsi bağlamadan işə cəlb edildiyi, 74 vergi ödəyicisi tərəfindən fərqləndirmə nişanı olmadan avtomobil nəqliyyatı ilə sərnişin daşındığı, 19 vergi ödəyicisində aksiz markaları ilə müvafiq qaydada markalanmamış 191 ədəd mal olduğu aşkarlanmışdır.

Aşkar edilmiş faktlarla bağlı qanunamüvafiq tədbirlər görülmüşdür.

Azərbaycanın vergi sistemi: 2003-2013

# Mütərəqqi beynəlxalq təcrübəyə əsaslanan çevik vergi sistemi

*Son 10 ildə Azərbaycanın vergi orqanlarında həyata keçirilən islahatların dünya praktikasında sınaqdan uğurla çıxmış modellərə əsaslanması ümumilikdə vergi inzibatçılığı işinin çevikliyini, işləkliyini və səmərəliliyini təmin etmişdir. Respublikanın vergi sisteminin 2003-2013-cü illərdə əldə etdiyi mühüm nailiyyətlərdən biri də onun beynəlxalq vergi sistemə inteqrasiyası, habelə bu sahədə islahatçı ölkələr qrupuna daxil olmasıdır.*

Ötən 10 ildə nazirlik digər ölkələrin vergi qanunvericiliyinin öyrənilməsi və təcrübə mübadiləsinin aparılması, eləcə də səlahiyyətli vergi orqanları ilə əlaqələrin qurulması, qarşılıqlı səfərlərin, görüşlərin təşkili; beynəlxalq və regional vergi təşkilatlarının işində səmərəli iştirakın təmini; vergi məsələlərinə dair beynəlxalq müqavilələrin layihələrinin hazırlanması, həmin müqavilələrin tətbiqi ilə bağlı vergi əməkdaşlarının və vergi ödəyicilərinin məlumatlandırılması; müxtəlif beynəlxalq tədris kurslarında, seminarlarda və digər tədbirlərdə vergi işçilərinin peşəkarlıq səviyyəsinin artırılması sahəsində mühüm uğurlara imza atmışdır.

## *2003-2013-cü illərdə vergilər sahəsində ixtisaslaşmış bir sıra nüfuzlu beynəlxalq qurumlarla əməkdaşlıq istiqamətində də sistemli tədbirlər həyata keçirilmişdir*

2003-2013-cü illərdə vergilər sahəsində ixtisaslaşmış bir sıra nüfuzlu beynəlxalq qurumlarla əməkdaşlıq istiqamətində də sistemli tədbirlər həyata keçirilmişdir. 2002-ci ildən Avropadaxili Vergi Administrasiyaları Təşkilatına (IOTA) üzv olan, qurumla sıx əməkdaşlıq edən Vergilər Nazirliyinin ötən dövrdə əldə etdiyi səmərəli nəticələr xüsusi vurğulanmalıdır. Nazirlik belə bir mötəbər təşkilata üzv olmaqla Avropa məkanında vergitutma ilə bağlı prosesləri yaxından izləmək, təcrübə mübadiləsi aparmaq, habelə innovativ yenilikləri tətbiq etmək imkanı qazanmışdır. Bu isə öz növbəsində milli vergi sisteminin təkmilləşdirilməsi və müasirləşdirilməsi baxımından əhəmiyyətli olmuşdur.

IOTA ilə səmərəli əməkdaşlığın nəticəsi olaraq 2007-ci ilin mayında təşkilatın «Vergi ödəyicilərinə xidmət və tədris» İşçi Qrupunun iclası Bakı şəhərində keçirilmişdir. Eyni zamanda, təşkilatın 2010-cu il üçün iş planına əsasən, «ƏDV fırıldaqçılığının aşkarlanması və qarşısının alınması» İşçi Qrupunun iclası da 2010-cu ilin sentyabrında Bakı şəhərində təşkil edilmişdir. Belə tədbirlərin Azərbaycanda keçirilməsi çoxsaylı ölkələrin nümayəndələrinin milli vergi sistemi ilə yanaşı, ölkəmizlə, onun sürətli sosial-iqtisadi inkişafı, eyni zamanda mədəniyyəti, tarixi ilə yaxından tanışlığına imkan vermişdir.

IOTA-nın 2008-2012-ci illər üzrə strategiyasının hazırlanması məqsədilə təşkilatın İcra Şurasının qərarı ilə yaradılan Strateji işçi qrupuna Vergilər Nazirliyi də daxil edilmişdir. 2009-cu ildə isə təşkilatın 13-cü Baş Assambleyasında iştirak edən Azəbaycan nümayəndə heyəti ölkəmizdə tətbiq olunan «ƏDV-nin depozit hesabı» barədə geniş təqdimat keçirmiş, həmin təqdimat böyük marağa səbəb olmuşdur.

2013-cü ilin fevralında Bakıda Avropadaxili Vergi Administrasiyaları Təşkilatının (IOTA) Baş Əlaqələndirici Şəxslərinin 19-cu Forumu işinə başlamışdır. Forumda 33 üzv ölkənin, eləcə də İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD), IOTA-nın nümayəndələri və IOTA-nın prezidenti cənab Samuel Tanner iştirak etmişdir.

Ümumiyyətlə, hər il IOTA tərəfindən vergi inzibatçılığının müxtəlif sahələrinə dair keçirilən 25-dək tədbirdə nazirliyin mütəxəssisləri iştirak edərək təcrübə mübadiləsi imkanı qazanırlar. IOTA-nın 2013-cü ilin iyul ayında keçirilmiş Baş Assambleyasının iclası zamanı isə Vergilər Nazirliyi növbəti bir il müddətinə təşkilatın İcraiyyə Şurasının üzvü seçilmişdir. Onu da bildirək ki, Vergilər Nazirliyi MDB ölkələri arasında IOTA-nın İcraiyyə Şurasına üzv seçilmiş ilk vergi administrasiyasıdır. Təşkilatın əsas qərarverici və idarəetmə orqanı olan İcraiyyə Şurasına üzvlük Vergilər Nazirliyinin IOTA ilə əməkdaşlığının inkişafı və ölkəmizin beynəlxalq aləmdəki nüfuzunun artması baxımından əhəmiyyətli hesab olunur.

Şəffaflığın və hesabatlılığın təmin edilməsi baxımından Beynəlxalq Antikorrupsiya Akademiyası (IACA) ilə əməkdaşlığın əhəmiyyəti də xüsusi vurğulanmalıdır. Korrupsiyaya qarşı mübarizə və onun qarşısının alınmasının birgə təşviqi, bu sosial bəla ilə mübarizədə əməkdaşlığın dərinləşdirilməsi məqsədilə IACA ilə əlaqələrin gücləndirilməsi istiqamətində mühüm addımlar atılmışdır. 15 fevral 2012-ci il tarixdə «Azərbaycan Respublikası Vergilər Nazirliyi və Beynəlxalq Antikorrupsiya Akademiyası arasında Anlaşma Memorandumu» imzalanmışdır. Korrupsiyaya qarşı mübarizə və şəffaflığın artırılmasına dair IACA tərəfindən keçirilən seminarlarda Vergilər Nazirliyinin əməkdaşları müntəzəm iştirak edirlər.

Vergilər Nazirliyinin İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) ilə əməkdaşlığı da ölkəmizin vergi sisteminin modernləşdirilməsi baxımından əhəmiyyətli olmuşdur. Bu əməkdaşlıq çərçivəsində nazirliyin mütəxəssisləri ötən illərdə Ankara, Budapeşt və Vyana şəhərlərində yerləşən «Çoxmilli Vergi Mərkəzləri»ndə müxtəlif mövzularda seminarlarda, habelə təşkilatın baş qərargahının yerləşdiyi Paris şəhərində keçirilən qlobal forumlarda fəal iştirak etmişlər. Bundan başqa, məlumat mübadiləsinin beynəlxalq standartlara uyğunlaşdırılması məqsədilə 26 fevral 2013-cü il tarixdə Azərbaycanın OECD-nin «Vergi sahəsində şəffaflıq və məlumat mübadiləsi üzrə Qlobal Forumu»na üzvlüyü təmin edilmişdir.

Ötən illərdə MDB iştirakçısı olan dövlətlərin Vergi xidmətləri rəhbərlərinin Koordinasiya Şurası (KSRNS), habelə Vergi (maliyyə) təhqiqatı orqanları rəhbərlərinin Koordinasiya Şurası (KSONR) ilə əməkdaşlıq münasibətləri də yüksələn xətlə inkişaf etmişdir. MDB-yə üzv ölkələrin vergi orqanları ilə əməkdaşlığın genişləndirilməsi, habelə onların Azərbaycanın bu sahədəki uğurları ilə yaxından tanış edilməsi məqsədi ilə hər iki quruma əməkdaşlığa xüsusi önəm verilmişdir. Vergilər Nazirliyinin nümayəndə heyətləri hər iki koordinasiya şurasının illik iclaslarında müntəzəm şəkildə iştirak edirlər. Hazırda vergilər naziri cənab Fazil Məmmədov MDB iştirakçısı olan dövlətlərin Vergi xidmətləri rəhbərlərinin Koordinasiya Şurasının sədridir.

Nazirliyin Birləşmiş Millətlər Təşkilatının (BMT) Vergi məsələlərində beynəlxalq əməkdaşlıqla bağlı Ekspertlər Komitəsi ilə də sıx əlaqələri mövcuddur. 26 iyul 2013-cü il Ekspertlər Komitəsinin yeni tərkibi təsdiq olunmuş və BMT Baş Katibinin qərarı ilə dünyanın müxtəlif regionlarını təmsil edən namizədlər arasından seçilmiş 25 ekspert, o cümlədən Azərbaycan Respublikası Vergilər Nazirliyinin Beynəlxalq münasibətlər idarəsinin əməkdaşı növbəti 4 illik müddətə adı çəkilən komitənin üzvü təyin edilmişdir.

*Davamı növbəti sayımızda*

**S.MUSTAFAYEV**

# Azərbaycanda baş verən müsbət dəyişikliklərlə bağlı təəssüratım çox yüksəkdir



***Bu günlərdə Vergilər Nazirliyində Danimarka Krallığının Vergitutma Nazirliyinin və Azərbaycan Respublikasının Vergilər və Maliyyə nazirliklərinin nümayəndələri arasında görüş keçirilmişdir.***

Görüşün məqsədi Azərbaycan və Danimarka arasında gəlirlərə görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Konvensiya layihəsi üzrə mütəxəssislər səviyyəsində növbəti danışıqların aparılması olmuşdur.

Bu danışıqların 20-24 sentyabr 2004-cü ildə Bakıda, 20-24 sentyabr 2005-ci ildə Kopenhagendə olmaqla iki mərhələsi keçirilmişdir. Lakin 2005-ci ildən sonra beynəlxalq vergitutmada əhəmiyyətli dəyişikliklər baş vermiş və 2011-ci ildə Azərbaycan Respublikasının ikiqat vergitutmanın aradan qaldırılması haqqında Konvensiya Modelinin yeni mətni hazırlanmış və razılaşdırılmışdır. Bütün bunlar nəzərə alınmaqla, Danimarka tərəfi ilə danışıqların birinci və ikinci mərhələləri zamanı Konvensiya layihəsinin müasir tələblərə uyğunlaşdırılması məqsədilə mütəxəssislər səviyyəsində müzakirələrin daha bir mərhələsi keçirilmiş və nəticədə layihənin əsas müddəaları üzrə razılıq əldə edilmişdir.

*Görüşdə iştirak edən Danimarka Vergilər Nazirliyinin hüquq məsləhətçisi Erik Yorqensenin qəzetimizə verdiyi müsahibəni təqdim edirik.*

***- Cənab Yorqensen, «Azərbaycan Respublikası Hökuməti və Danimarka Krallığı Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Konvensiya» layihəsi üzrə danışıqların indiki mərhələsini necə qiymətləndirirsiniz?***

- Danışıqların həqiqətən çox müsbət və məhsuldar keçdiyini deyə bilərəm. Hər iki tərəf bu problemin sonadək həll edilməsinə can atır. Hazırda müzakirələr davam edir və ayrı-ayrı müddəaların razılaşdırılması istiqamətində işlər yekunlaşmaq üzrədir.

***- Bu Konvensiyanın hər iki tərəf üçün əhəmiyyəti nədən ibarətdir?***

- Gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Konvensiyanın qəbulu iki dövlət arasında iqtisadi əlaqələrin inkişafında mühüm əhəmiyyətə malikdir. Konvensiya, eyni zamanda, ölkələr arasında kapital qoyuluşunu asanlaşdırmaq və hökumətlər arasında qarşılıqlı əməkdaşlığın təşviq edilməsinə xidmət edir. Qeyd edim ki, Danimarka müəssisələri, şirkətləri Azərbaycanda iş qurmaq və fəaliyyətlərini genişləndirmək üçün iki ölkə arasında bu layihənin reallaşmasını səbrsizliklə gözləyir.

***- Bildiyimizə görə, Avropa ölkələri arasında yalnız Azərbaycanda və Danimarkada Vergilər Nazirliyi müstəqil struktur kimi fəaliyyət göstərir. İdarəetmənin bu formasının üstün və çatışmayan tərəfləri hansılardır?***

- Danimarkada Vergilər Nazirliyi ayrıca qurum kimi 1975-ci ildən fəaliyyət göstərir. Belə demək mümkündürsə, bunu hökumət daxilində əmək bölgüsünün praktiki təşkili kimi qiymətləndirmək olar. Vergitutma xüsusi bir mövzudur və ümumi büdcə məsələləri ilə müqayisə oluna bilməz. İdarəetmənin bu cür formasının əsas üstünlüyü vergi siyasətinin ayrıca aparılması və ümumi büdcədən asılı bir qurum olmamasıdır. Mənfi tərəflərinə gəldikdə isə, səmimi olaraq, belə bir sistemin hər hansı mənfi və çatışmayan tərəflərini görə bilmirəm.

***- Bu, Sizin ölkəmizə neçənci səfərinizdir? Bugünkü Azərbaycanın sosial-iqtisadi həyatında baş verən dəyişikliklər haqqında nə deyə bilərsiniz?***

- Bu, mənim Azərbaycana ikinci səfərimdir. Birinci dəfə 2004-cü ildə ölkənizdə olmuşam və o vaxtdan indiyədək böyük inkişaf getdiyini, xeyli dəyişikliklər baş verdiyini görürəm. Tam əminliklə deyə bilərəm ki, Azərbaycan bir çox sahələrdə, xüsusilə iqtisadi inkişaf baxımından ötən bu qısa müddət ərzində ciddi uğurlara nail olub. Azərbaycanla, Azərbaycanda baş verən dəyişikliklərlə bağlı təəssüratım çox yüksəkdir.

**AYTƏN**

# Əmək bazarına nəzarət tədbirləri gücləndirilir

## *Sosial sığorta ödənişlərinin strukturunun dəyişdirilməsi təklif olunur*

*Son bir ildə aidiyyəti dövlət qurumları tərəfindən əmək bazarına nəzarətin gücləndirilməsi, işçilərlə işəgötürənlər arasında münasibətlərin əmək müqaviləsi əsasında rəsmiləşdirilməsi istiqamətində sistemli tədbirlər görülür.*

Nazirlər Kabinetinin 2012-ci ilin birinci yarısının sosial-iqtisadi yekunlarına və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş iclasında ölkə başçısının verdiyi tapşırıqların icrası məqsədilə Vergilər Nazirliyi, Dövlət Sosial Müdafiə Fondu və Dövlət Əmək Müfəttişliyinin koordinasiyalı fəaliyyəti təmin olunub, qanunvericiliyin imkan verdiyi inzibati vasitələrlə yanaşı, əhali arasında maarifləndirmə tədbirləri genişləndirilib.

Əmək müqaviləsinin imzalanmasının zəruriliyi, işçilər üçün yaratdığı üstünlüklər, pensiya təminatındakı rolu və digər mühüm məqamlar bu gün də insanlara geniş izah olunur. Problemin aktuallığı onunla şərtlənir ki, Azərbaycanda sahibkarlıq fəaliyyəti ilə məşğul olan bir sıra özəl şirkətlərdə - ticarət, xidmət sahələrində vergi və sosial sığorta ödənişlərindən yayınmaq məqsədilə iş yerlərinin rəsmiləşdirilməməsi hallarına hələ də təsadüf olunur. Muzdlu işlə əlaqədar əməkhaqqından tutulan gəlir vergisi hesabatlarında göstərilən rəqəmlər də əksər hallarda reallığı əks etdirmir.

Həyata keçirilən tədbirlərdə məqsəd yalnız ölkə iqtisadiyyatında şəffaflıq və hesabatlılığı təmin etməkdən, vergidən yayınma hallarının qarşısını almaqdan ibarət deyil. Bu reallıq da xüsusi diqqətə çatdırılır ki, əmək münasibətlərinin rəsmiləşdirilməsi, eləcə də əməkhaqlarının düzgün göstərilməsi, ilk növbədə, gələcəyə etibarlı təminatın yaradılması deməkdir. Əmək müqaviləsinin imzalanmaması zaman keçdikdə təkcə işçilərin deyil, bir sıra hallarda hətta işəgötürənlərin də hüquqlarının pozulması ilə nəticələnir.

Bütün bunları nəzərə alan Vergilər Nazirliyi qeyri-leqal məşğulluğun aradan qaldırılması, muzdlu işlə əlaqədar əməkhaqqından tutulan gəlir vergisi üzrə vergitutma bazasının genişləndirilməsi istiqamətində sistemli tədbirlər həyata keçirir. Hələ ötən il nazirlikdə müvafiq Tədbirlər Planı hazırlanıb, bu sahədə işlərin koordinasiyalı qurulması və səmərəliliyin artırılması məqsədi ilə qərargah yaradılıb. Əmək müqavilələrinin bağlanılmaması meyarı üzrə bir sıra riskli vergi ödəyiciləri seçilib, həmin vergi ödəyicilərinin fəaliyyəti müxtəlif vergi yoxlamaları ilə əhatə edilib. Yoxlamalar nəticəsində həmin riskli vergi ödəyicilərində fiziki şəxslərin əmək müqaviləsi bağlamadan işlərin yerinə yetirilməsinə cəlb edildiyi aşkarlanıb və nəticələri ictimaiyyətə açıqlanıb.

Əmək münasibətlərinə sistemli nəzarətin təşkili məqsədilə müasir informasiya və innovativ texnologiyaların verdiyi imkanlardan da geniş istifadə olunub.

Xüsusi vurğulamaq lazımdır ki, 2013-cü ilin 1 yanvarından qüvvəyə minmiş Vergi Məcəlləsinə əlavə və dəyişikliklər paketi də əmək bazarına nəzarətin gücləndirilməsi baxımından mühüm əhəmiyyətə malikdir. Məsələn, həmin dəyişikliklər nəticəsində fiziki şəxslərdən gəlir vergisinin maksimum dərəcəsinin 30%-dən 25%-ə endirilməsi, minimum dərəcənin tətbiq olunduğu məbləğin isə 2000 manatdan 2500 manata qaldırılması əmək müqavilələrinin leqallaşdırılması üçün stimul yaradıb. Eləcə də bir müddət əvvəl tətbiqinə start verilmiş vergi partnyorluğu sazişi vergi ödəyicilərini əmək müqavilələrinin imzalanmasına həvəsləndirəcək.

Fəqət, bu sahədə mövcud problemlərin qısa zamanda tam aradan qaldırılmasının qeyri-mümkünlüyü də etiraf olunmalıdır. Hazırda aidiyyəti orqanlar müvafiq uçota durmadan fərdi əmək fəaliyyəti ilə məşğul olan, məcburi ödənişlərdən yayınan şəxslərin müəyyənləşdirilməsi istiqamətində işləri davam etdirirlər. 2013-cü ilin birinci yarısında vergi orqanları tərəfindən həyata keçirilmiş operativ nəzarət tədbirləri zamanı 2.863 vergi ödəyicisi tərəfindən 4.720 nəfər fiziki şəxsin əmək müqaviləsi bağlamadan işə cəlb edildiyi məlum olub.

Dövlət Əmək Müfəttişliyinin həyata keçirdiyi tədbirlər nəticəsində 5096 nəfər işçi ilə əmək müqaviləsinin bağlanılması təmin edilib. İlin birinci yarısında Azərbaycanda fərdi şəxsi hesaba malik sığortaolunanların sayı isə ötən ilin müvafiq dövrü ilə müqayisədə 12,2% artıb. Bu müddətdə Dövlət Sosial Müdafiə Fondu (DSMF) tərəfindən əlavə olaraq 315.512 sığortaolunana fərdi şəxsi hesab açılaraq sosial sığorta şəhadətnamələri paylanılıb.

Bu günlərdə isə DSMF işəgötürənlərin əmək müqaviləsinin rəsmiləşdirilməsinə həvəsləndirilməsi məqsədilə dövlət sosial sığortası üzrə ödəmələrin dərəcələrinin strukturunun dəyişdirilməsi təklifi ilə çıxış edib. DSMF sədri Səlim Müslümov bildirib ki, hazırda işəgötürənlər üçün məcburi sosial sığorta ödənişləri 22%, işçilər üçün isə cəmi 3%-dir. Yeni təklif isə sosial sığorta ödənişlərinin sxeminin «18+7» olmasını nəzərdə tutur. Yəni işçilər üçün məcburi sosial sığorta ödənişlərinin üçdən yeddi faizədək artırılması, işəgötürənlər üçün isə adekvat olaraq 7% azaldılması təklif olunur. DSMF sədri vurğulayıb ki, müvafiq təklif pensiya islahatı ilə bağlı hazırlanan müvafiq dövlət proqramında da əksini tapacaq. Yeni ödəniş sxeminin 2014-cü ilin 1 yanvarından tətbiq olunacağı da istisna edilməyib.

Vətəndaşların Əmək Hüquqlarının Müdafiəsi Liqasının sədri Sahib Məmmədov qəzetimizə açıqlamasında bildirib ki, işəgötürənlərin ödədiyi sosial sığorta haqlarının həcmi məşğulluğun səviyyəsinə təsir göstərən mühüm amillərdən biridir: «İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, bu ödənişlərin azaldılması xərclərin aşağı düşməsinə zəmin yaradaraq işçi qüvvəsinə olan tələbi artırır və məşğulluq səviyyəsinin yüksəlməsinə əhəmiyyətli təsir göstərir. Bir çox Avropa ölkələrində həyata keçirilən bu islahatların məqsədi böhrandan ziyan görən sahibkarları yeni işçilərin cəlb edilməsinə təşviq etmək və işsizliyin qarşısını almaqdır. Bu yolla həm ixtisaslı işçi qüvvəsini saxlamaq, həm də struktur işsizliyinin yayılmasını dayandırmaq mümkündür. Finlandiya, Fransa, Macarıstan, İrlandiya, Portuqaliya və Türkiyə kimi bir sıra ölkələr böhran zamanı işsizliyin səviyyəsini azaltmaq məqsədilə yuxarıda qeyd olunan güzəştlərdən istifadə ediblər».

Ekspertin sözlərinə görə, qeyri-leqal məşğulluq və əmək müqavilələrinin rəsmiləşdirilməməsi hallarına hazırda dünyanın bütün ölkələrində rast gəlinir. Adətən, işçi qüvvəsinin hərəkətinin sürətlə dəyişdiyi çeviklik olan sahələrdə - ticarətdə, ictimai iaşə və nəqliyyat sektorlarında, tikintidə qeyri-leqal məşğulluğa daha çox təsadüf olunur: «İşəgötürənlər bir çox hallarda sosial sığorta ödənişlərinin yüksək həcmini əsas götürərək işçilərlə əmək müqaviləsi imzalamaqdan imtina edirlər. Halbuki Azərbaycanda işəgötürənlərin sosial sığorta ödənişləri 22% olduğu halda, bəzi MDB ölkələrində bu rəqəm 35%-ə çatır. Ümumiyyətlə, Azərbaycanda bu faiz dərəcəsi digər MDB respublikaları ilə müqayisədə nisbətən aşağıdır. Lakin bu dərəcələrin bir qədər də aşağı salınması əmək müqaviləsinin rəsmiləşdirilməsinə yönəlmiş tədbirlərə əlavə təkan ola bilər».

**Samir MUSTAFAYEV**

*2013-cü ilin 1 yanvarından qüvvəyə minmiş Vergi Məcəlləsinə əlavə və dəyişikliklər paketi əmək bazarına nəzarətin gücləndirilməsi baxımından mühüm əhəmiyyətə malikdir*



Akif Musayev
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin
Vergi siyasəti və strateji araşdırmalar
Baş İdarəsinin rəisi

Rakurs

# Beynəlxalq təcrübədə aksizlər

Aksizin məqsədli şəkildə geniş tətbiqinə Fransada başlanılıb. Valualar sülaləsinin ilk kralı olan VI Filip 1345-ci ildə bu vergini duz, çaxır və arağa tətbiq etmişdir. Fransız dilindən götürülmüş «aksiz» sözü «kəsmək» mənasını daşıyır. Sonradan həmin söz digər dillərdə də istifadə edilməyə başlanmış, holland dilində «excijs», orta əsrdə latın dilində «accisa tax» kimi dolayı istehlak vergisi mənasında işlənən beynəlxalq terminə çevrilmişdir.

Aksizlər dövlət büdcəsinin sabit və dayanıqlı gəlir mənbəyi kimi bazar iqtisadiyyatı modelini seçmiş bütün ölkələrdə az sayda əmtəə qrupuna tətbiq edilir. Onun bir vergi kimi iqtisadi inkişafa təsiri azdır, yəni faktiki olaraq iqtisadiyyatın tənzimlənməsi üçün xüsusi əhəmiyyət daşımır. Lakin daxili bazarın qorunması, iqtisadi təhlükəsizliyin nəzarət altında saxlanılması üçün aksizin, xüsusilə də idxal-ixrac əməliyyatları zamanı, əhəmiyyəti çox böyükdür.

Bir sıra ölkələrdə avtomobil yollarında istifadəyə görə ödəniş kimi avtomobillərdən, bəzi ölkələrdə isə zinət əşyalarından, əntiq mallardan aksiz vergisi tutulur. Böyük Britaniyada isə aksizlər xüsusi lisenziyalar şəklində aerodrom, kempinq, at yarışları üçün ippodrom, teatr, milli konsert zalı, milli mətbuat mərkəzləri, milli idman arenası, milli mədəniyyət obyektləri, təyyarə ilə sərnişin daşıma, qayıqla şərnişin daşıma məbləği müvafiq olan lisenziya alınmaqla aksizə cəlb olunur.

Bəzi ölkələrdə isə aksizə cəlb edilən malların sayı və çeşidi çox genişdir. Məsələn, Pakistan və Hindistanda aksizlərin tətbiq dairəsi böyükdür, çünki satışa görə vergidən fərqli olaraq, aksiz daxilolmaları mərkəzi büdcəyə ödənilir və onun əsas gəlir mənbələrindən biridir. Aksizli malların geniş spektrini tətbiq edən inkişaf etmiş ölkələrdən Danimarka və Yaponiyanı qeyd etmək olar.

Aksiz yığımlarının böyük hissəsi alkoqollu içkilərdən tutulan aksizlərin payına düşür. Məhsul vahidinə onun miqdarı, bir qayda olaraq, içkinin tərkibində xalis alkoqolun səviyyəsindən və spirtin miqdarından asılı olur. Ancaq əksər ölkələrdə alkoqollu içkilərin bəzi növləri, məsələn, pivə, çaxır ya azaldılmış, ya da sıfır dərəcə ilə aksizə cəlb edilir. Bu içkilərin tərkibində alkoqolun miqdarı az olduğundan, insan orqanizmi üçün elə də zərərli olmaması amili nəzərə alınır.

*Aksizlər dövlət büdcəsinin sabit və dayanıqlı gəlir mənbəyi kimi bazar iqtisadiyyatı modelini seçmiş bütün ölkələrdə az sayda əmtəə qrupuna tətbiq edilir*

Faktiki olaraq, bütün ölkələrdə alkoqollu məhsullara görə aksizi onun istehsalçıları və ya idxalçıları ödəyirlər. Bir sıra ölkələrdə (Almaniya, Rusiya) dərman preparatları, kosmetik vasitələr, qida məhsulları (içkilərdən başqa), aromatik essensiyalar və sirkələrin hazırlanması məqsədilə spirtdən istifadə aksizə cəlb olunmur.

Bəzi ölkələrdə alkoqollu məhsulların xırda istehsalçılarını müdafiə etmək məqsədilə istehsal olunmuş alkoqollu məhsulun vergiyə cəlb edilməyən minimumu tətbiq olunur. Məsələn, Almaniyada il ərzində 2 qallon həcmində ev şəraitində şəxsi istehlak məqsədilə istehsal edilən pivə aksizə cəlb olunmur.

Bütün növ tütün məmulatlarından daxil olan aksizlərin, demək olar ki, 90 faizi siqaretlərin payına düşür. Tütün məmulatlarının qalan növlərinə isə diferensiallaşdırılmış dərəcələr tətbiq olunur. Siqaralara və tənbəkiyə tətbiq olunan dərəcələr daha yüksəkdir. Bu zaman iki əsas məqsəd güdülür. Əvvəla, adətən siqara və tənbəkidən daha çox imkanlı şəxslər istifadə edirlər, ikincisi isə onlardan istifadə digər tütün məmulatlarına nəzərən, orqanizm üçün daha zərərlidir.

Almaniyada tütün məmulatlarına aksizlər əksər hallarda vergi məbləğinin ödənilməsi yolu ilə deyil, xüsusi aksiz markalarının tətbiqi ilə Federal Gömrük Administrasiyası tərəfindən yığılıb federal büdcəyə ödənilir. Aksizlərin ödənilməsi tütün məmulatlarının «vergi anbarı» rejimindən çıxdığı zaman həyata keçirilir.

Böyük Britaniyada aksizin ödənilməsi öhdəliyi tütün məmulatlarının istehsalının son mərhələyə çatdığı, yəni istehlaka hazır olduğu vaxt yaranır. Burada aksizin advalor və spesifik dərəcələrindən istifadə olunur. Siqaretin uzunluğu və tütün qətranının səviyyəsi müəyyən edilmiş normadan artıq olduqda spesifik dərəcə artırılır.

Avtomobil yollarından istifadəyə görə digər məcburi ödənişlər arasında yanacaq-sürtkü materiallarından tutulan aksizlərin xüsusi çəkisi əksər ölkələrdə kifayət qədər yüksəkdir. Bu aksizlər avtomobil yollarından istifadəyə görə ödənişdən əlavə, fiskal funksiyanı da yerinə yetirir.

Avtonəqliyyat vasitələrində benzin kimi istifadə olunan yanacağın aksizə cəlb edilməsi ölkələr üzrə diferensiallaşdırılır. Yüksək oktanlı benzin növlərindən istifadə edilməsinin ekologiyaya mənfi təsiri az olduğundan, daha aşağı dərəcələrlə vergiyə cəlb edilir. Məsələn, Avropa İttifaqının üzvü olan ölkələrdə etilləşdirilmiş benzinə verginin dərəcəsi etilləşdirilməmiş benzinə tətbiq edilən dərəcədən orta hesabla 10 faiz yüksəkdir. Dizel yanacağına aksizlər onun təyinatı ilə əlaqədar fərqli qaydada tətbiq edilir. Birincisi, bir sıra ölkələrdə dizel yanacağından ev təsərrüfatında isitmə və elektrik enerjisinin generasiyası məqsədləri üçün, eyni zamanda kənd təsərrüfatında və yüklərin daşınmasında istifadə edilir. İkincisi isə benzinlə müqayisədə dizel yanacağının ətraf mühitə mənfi təsiri daha azdır, həmçinin avtonəqliyyat vasitəsinin analoji məsafəni qət etməsinə daha az sərf norması ilə xarakterizə olunur. ABŞ-da isə benzin ilə müqayisədə dizel yanacağına daha yüksək dərəcədə aksiz tətbiq edilsə də, kənd təsərrüfatında dizel yanacağından istifadəyə görə nəzərəçarpacaq güzəştlər təklif olunur.

## Hüquq məsləhətxanamız



Samirə Musayeva
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin Hüquq Baş İdarəsinin rəisi
vergi ödəyicilərinin suallarına cavab verir

# Torpaqların dövlət ehtiyacları üçün alınması

***Torpaqlar hansı hallarda dövlət ehtiyacları üçün alına bilər və bu zaman ödənilən kompensasiya vergiyə cəlb edilirmi?***

«Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında» Qanunun 1.1.1-ci maddəsinə əsasən alınma - dövlət ehtiyacları üçün bələdiyyə və xüsusi mülkiyyətdə olan torpaq (onun müəyyən hissəsi) üzərində mülkiyyət, istifadə və icarə hüquqlarına, bu torpaqdan istifadəyə dair müəyyən edilmiş yüklülüklər (məhdudiyyətlər) də daxil olmaqla xitam verilməsi yolu ilə həmin torpağın (onun müəyyən hissəsinin) mülkiyyətçidən könüllü və ya məcburi qaydada əvəzi ödənilməklə dövlət tərəfindən satın alınması, həmçinin istifadədə və (və ya) icarədə olan dövlət torpaqlarının müvafiq kompensasiya ödənilməklə istifadəçidən və ya icarəçidən geri alınmasıdır.

Qanunun 3.1-ci maddəsinə əsasən, torpağın alına biləcəyi dövlət ehtiyacları aşağıdakılardır:

- dövlət əhəmiyyətli yolların və digər kommunikasiya xətlərinin (magistral neft və qaz boru kəmərlərinin, kanalizasiya, yüksək gərginlikli elektrik xətlərinin, hidrotexniki qurğuların) çəkilməsi və quraşdırılması;
- sərhədboyu zolaqda dövlət sərhədinin etibarlı mühafizəsinin təmin edilməsi;
- müdafiə və təhlükəsizlik əhəmiyyətli obyektlərin tikilməsi;
- dövlət əhəmiyyətli dağ-mədən sənayesi obyektlərinin tikilməsi.

Qanunun 3.2-ci maddəsində qeyd edilmişdir ki, torpaqlar dövlət ehtiyacları üçün yalnız həmin Qanunda nəzərdə tutulmuş hallarda alına bilər.

Qanunun 4.1-ci maddəsinə əsasən, həmin Qanunun 3-cü maddəsinə uyğun olaraq dövlət ehtiyacları üçün tələb olunan hər hansı torpaq və ya paylı mülkiyyətdə olan torpaqda müvafiq pay (paylar) mülkiyyətçi (mülkiyyətçilər) ilə razılaşma əsasında, belə razılıq əldə edilmədikdə isə, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı əsasında məcburi qaydada dövlət tərəfindən kompensasiya ödənilməklə həmin Qanuna uyğun olaraq alına bilər.

Qanunun 1.1.6-cı maddəsinə əsasən, kompensasiya - həmin Qanuna əsasən torpaqların alınması və ya torpağa dair hüquqları ilə bağlı alınmanın təsirinə məruz qalan şəxslərə verilən, pul, əmlak və ya digər formada ifadə olunan əvəzdir.

Qanunun 81-ci maddəsində qeyd edilmişdir ki, ödənilən hər hansı kompensasiyaya görə heç bir vergi, rüsum və ya dövlətin xeyrinə alınan hər hansı ödəniş tutulmur.

Eyni zamanda, Vergi Məcəlləsinin 102.1.18-ci maddəsində qeyd edilmişdir ki, torpaqların dövlət ehtiyacları üçün alınması zamanı ödənilən kompensasiya gəlir vergisindən azaddır.

# Əmək qanunvericiliyinin pozulması vergidən yayınmaya səbəb olur

Müasir dövrümüzdə tikinti sektoru Azərbaycan iqtisadiyyatında aparıcı yerlərdən birini tutur və bu sahədə külli miqdarda maliyyə vəsaitləri dövr edir. Tikinti sektoru sahibkarlıq subyektləri üçün cəlbedici və gəlirli biznes olmaqla yanaşı, burada əhalinin müəyyən hissəsi işlə təmin olunmuşdur. Statistik məlumatlara görə, iri və orta tikinti müəssisələrində işləyənlərin sayı təxminən 40 mindən çoxdur. Özünün canlanma dövrünu yaşayan tikinti sektorunda müsbət tendensiyalarla yanaşı, neqativ hallar da mövcuddur. Azərbaycanda tikinti işləri genişləndikcə işci qüvvəsinə də tələbat artır. Bu şəraitdə tikinti şirkətləri işçilərlə əmək müqaviləsi bağlamaqdan yayınmağa üstünlük verməyə çalışırlar. Bu isə qanunvericiliyin tələblərinin pozulması deməkdir. Tikinti sahəsində əsas problemlərdən hesab olunan əmək müqaviləsi işçilərin təhlükəsizliyi məsələsinə də öz təsirini göstərir.




*İşçilərin təhlükəsizliyi ilə bağlı müvafiq qaydalara əməl olunmaması hallarına tikinti sektorunda daha çox rast gəlinir*

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, millət vəkili Səttar Mehbalıyevin sözlərinə görə, Azərbaycanda işçilərin təhlükəsizliyi məsələsində ən problemli vəziyyət tikinti sahəsindədir: «SSRİ dövründə tikinti sahəsində çalışanlar bu ixtisas üzrə təhsil alan şəxslər olsa da, təəssüf ki, hazırda istənilən şəxs tikinti sahəsi ilə məşğul olur». Millət vəkilinin fikrincə, tikinti şirkətləri təhlükəsizlik qaydalarını bilmədiklərinə görə iş şəraitini normal qurmur və işçini düzgün təlimatlandırmırlar: «İşçi təhlükəsizlik kəmərləri və dəbilqələrlə təmin edilmir və nəticədə iş yerində ölüm və zədələnmə halları baş verir. Ümumiyyətlə, işcinin xəsarət alması ilə nəticələnən halların 60-65%-i tikinti sahəsində baş verir. Hələ bu, düzgün və tam dolğun məlumat deyil. Çünki işəgötürənlər işçi və baş verən hadisə ilə bağlı bəzi məlumatları gizlədirlər. Qeyri-rəsmi şəkildə işçi ilə əlaqə yaradır, onlara sosial təminatları ilə bağlı problemlərini həll edəcəklərinə söz verirlər. İnsanlar da hüquqlarını bilmədiklərinə görə buna inanırlar. Həmin adamlar sonradan əmək əlillərinə çevrilir və öz hüquqlarını tələb edə bilmirlər».

Həmkarlar İttifaqları Konfederasiyası belə müəssisələrdə həmkarlar təşkilatlarının yaradılmasına çalışır. S.Mehbalıyevin qənaətinə görə, həmkarlar təşkilatları fəaliyyət göstərən müəssisələrdə xəsarət və ölüm halları, bədbəxt hadisələrin sayı qat-qat aşağı olur. Çünki həmkarlar təşkilatı olan müəssisələrdə işçinin hüquqlarını özündə əks etdirən kollektiv müqavilələr bağlanılır. Bu da neqativ hadisələrin sayının azalmasına gətirib çıxarır. Konfederasiya sədri işcilərlə müəssisə arasında «Baş Kollektiv Saziş» adlı sənədin imzalanmasının əhəmiyyətini vurğulamışdır. Bu sazişlərin bağlanması işçinin sosial vəziyyətinin yaxşılaşmasına və normal məvacib almasına xidmət edir. Buna görə də işçilər öz hüquqlarını dərindən öyrənməli və onun tətbiq edilməsinə çalışmalıdırlar.

Qeyd edək ki, müəssisə və təşkilatların rəhbərlərinin işçiləri əmək müqaviləsi olmadan çalışmağa vadar etmələri vergidən yayınma hallarının da yaranmasına münbit şərait yaradır. Əmək müqaviləsi bağlamayan işcilərin real gəlirlərindən verginin tutulması mümkün olmur. Yüksək məbləğdə əməkhaqqı ödəyən müəssisələr isə əmək müqaviləsi tələb etməyən işçilərə üstünlük verirlər. Bu problemin qarşısını almaq məqsədilə digər dövlət qurumları ilə yanaşı, Vergilər Nazirliyi də qanunvericiliyə müvafiq qaydada tədbirlər həyata kecirir. Belə ki, ölkə başçısının «Azərbaycan Respublikasında antiinflyasiya tədbirlərinin gücləndirilməsi haqqında» 31 may 2005-ci il tarixli fərmanında əmək müqaviləsi bağlanılmadan fiziki şəxslərin işə cəlb edilməsinə nəzarəti gücləndirmək Vergilər Nazirliyinə tapşırılmışdır. Qeyd olunan sahədə aparılan operativ nəzarət tədbirləri əmək müqavilələrinin bağlanılmaması hallarının qarşısını alaraq vətəndaşlarımızın pozulmuş hüquqlarının bərpasına və qanunun aliliyinin təmin olunmasına yönəldilmişdir. Cari ilin avqust ayı ərzində operativ nəzarət tədbirləri zamanı 437 vergi ödəyicisi tərəfindən 695 nəfər fiziki şəxsin əmək müqaviləsi bağlamadan işə cəlb edildiyi aşkar edilmişdir. 2013-cü ilin ötən 8 ayı ərzində isə vergi orqanları tərəfindən 9324 vergi ödəyicisində müvafiq nəzarət tədbirləri həyata keçirilmişdir. Nəticədə 3812 ödəyicidə əmək müqaviləsi bağlamadan işləyən 6393 nəfər aşkar olunmuşdur. Qanunvericiliyin tələblərini pozan vergi ödəyicilərinə əmək müqaviləsi olmadan işləyən hər bir şəxs üçün 1000 manat olmaqla, ümumilikdə 6 milyon 158 min manat məbləğində maliyyə sanksiyası tətbiq edilmişdir.

**Rəşad SADIQOV**

*Azərbaycan Mətbuat Şurası və «Vergilər» qəzetinin təşkilatçılığı ilə ulu öndər Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuş «Heydər Əliyev və Azərbaycanda vergi siyasəti» mövzusunda fərdi jurnalist yazıları müsabiqəsi müasir vergi sistemi ilə bağlı yeniliklərin, habelə qarşıda duran əsas hədəflərin cəmiyyətə çatdırılması baxımından mühüm əhəmiyyət daşımışdır. «Heydər Əliyevin iqtisadi inkişaf strategiyasında vergi siyasəti», «Nağdsız ödəniş sisteminin inkişaf perspektivləri», «Əmək müqaviləsi: gələcəyə təminat» istiqamətləri üzrə keçirilmiş müsabiqəyə ümumilikdə 44 yazı təqdim edilmiş, onlardan 9-u əsas mükafata layiq görülmüşdür.*

*Müsabiqədə mükafata layiq yer tutmuş növbəti məqaləni təqdim edirik.*

# Nağdsız ödəniş sisteminin oturuşması hansı nəticələrə imkan yaradacaq?

*Nağdsız ödəniş pul və pul vəsaitlərinin nağd olmadan banklar tərəfindən həyata keçirilən pul dövriyyəsi formasıdır. İnkişaf etmiş ölkələrdə nağdsız hesablaşmalar ticarət, iaşə və sair xidmət müəssisələrində, yaxud turistlər tərəfindən geniş istifadə olunur. Son dövrlərdə elektron ticarətin geniş vüsət alması da belə bir şərait yaradır ki, hesablaşmalar plastik kartlar - nağdsız şəkildə həyata keçirilir. Bu, beynəlxalq təcrübədən Azərbaycana keçən çox yaxşı və effektiv üsullardan biridir.*

Bəs Azərbaycanda nağdsız hesablaşma sahəsində vəziyyət nə yerdədir? Nağdsız ödəniş sisteminin inkişaf istiqamətləri ilə bağlı nələri bildirmək olar? Azərbaycanda son dövrlərdə nağdsız hesablaşmalar mühüm yer tutmağa başlayır. Bu sahədə islahatlardan əlavə, beynəlxalq əhəmiyyətli tədbirlər də prosesə böyük təkan vermiş oldu. Azərbaycanda keçirilən qlobal mədəniyyət, incəsənət, elm, əyləncə, idman tədbirləri nağdsız hesablaşma sahəsinin inkişafına stimul kimi qiymətləndirilir. Beləliklə, nağdsız ödəmə sistemi son iki ildə daha çox inkişaf etməyə başlayıb. Bakıda pos-terminalların quraşdırılması prosesi uğurla tamamlanıb. Bununla belə, nağdsız hesablaşmaların kəskin artmasına imkan yaradılması üçün bir sıra tədbirlərin görülməsi zəruridir. Bu gün vətəndaşlarda plastik kartların sayı 5 milyona yaxındır. Buna baxmayaraq, hələlik vətəndaşlarda plastik kartlardan və nağdsız hesablaşmalardan istifadə ilə bağlı oturuşmuş ənənə formalaşmayıb. Bu ənənənin olmaması ona gətirib çıxarır ki, vətəndaşların plastik kartlardan istifadə həvəsini azaldır. Bundan başqa plastik kartlar satış obyektlərində, alış-veriş mərkəzlərində lazımınca istifadə edilmir. Ona görə də satış obyektlərində işçilərin plastik kartlardan istifadə ilə bağlı maarifləndirilməsinə ciddi ehtiyac olması da bu sistemin inkişaf istiqamətləri sırasında qeyd edilməlidir. Həmçinin heç də bütün satış və ticarət obyektləri plastik kartlardan istifadədə maraqlı deyil. Çünki plastik kartlar vergidən yayınmanın qarşısını alır. Bu baxımdan da bir çox ticarət obyektləri bundan yayınmağa çalışırlar.

*Vergiyə cəlb olunan dövriyyənin rəsmi uçotunun maksimum səviyyəyə çatdırılması və bununla da şəffaflığın təmin olunması ən vacib məsələlərdəndir*

İqtisadi Resursların Tətbiqi Mərkəzinin rəhbəri Ruslan Atakişiyev isə qəzetimizə bu barədə belə bildirdi: «İqtisadiyyatda nağd pul dövriyyəsinin məhdudlaşdırılması və donorlaşmanın qarşısının alınması, təsərrüfat subyektlərində maliyyə intizamının gücləndirilməsi, şəffaflığın artırılması, vergidən yayınma hallarının aradan qaldırılması, bazarda nağd pul emissiyasının uyğun saxlanması, pulun tədavül qanununa riayət olunması, həmçinin əməkhaqqı, pensiya və təqaüdlərin vaxtında, rahat üsullarla paylanması məsələsi, əhaliyə dövlət təşkilatları tərəfindən göstərilən kommunal və sair xidmətlərin haqlarının asan şəkildə ödənilməsi, xidmətlərin asanlaşdırılması, elektron hökumətin Azərbaycanda inkişaf etdirilməsi çərçivəsində dövlət rüsumlarının ödənilməsi, elektron bazarlara çıxışın genişləndirilməsində nağdsız hesablaşma sistemi müstəsna önəm daşıyır».




***«Həm təşviqi, həm də inzibati metodlardan istifadə edilməlidir»***

İqtisadçı ekspert Vüqar Bayramov isə qəzetimizə bu barədə fikirlərini belə bildirir: «Plastik kartlardan, eləcə də nağdsız hesablaşmalardan istifadənin genişləndirilməsi ilə bağlı hansı addımların atılmasına gəlincə, bu zaman həm təşviqi, həm də inzibati metodlardan istifadə edilməsi məqbuldur. Təşviqi metodlardan biri ilə bağlı Türkiyə təcrübəsini misal çəkmək olar: plastik kartlardan istifadə edən və plastik kartlarla ödəniş həyata keçirənlər üçün müəyyən bonuslar müəyyənləşdirilir. Plastik kartla ödəniş edən vətəndaşların ödənişlərinin bir qismi sonradan - ayın və ya ilin sonunda onun hesabına yatırılır. Məsələn, vətəndaş rüb ərzində plastik kartdan istifadə edərək min manatlıq alış-veriş edibsə, həmin min manatın 3 faizi, yəni 30 manatı sonradan vətəndaşın hesabına yatırıla bilər. Bu isə vətəndaşlarda plastik kartlardan istifadə ilə bağlı stimul yaradır. Amma 30 manatın vətəndaşa qayıtması dövlət üçün ciddi bir xərc olmayacaq. Bu vətəndaşlarda stimul yaradacaq ki, onlar kütləvi şəkildə nağdsız hesablaşmalardan istifadə etsinlər. Eyni zamanda elektron ticarətə bir sıra güzəştlər tətbiq edilməsinə ehtiyac var. ABŞ-da eletron ticarət əlavə dəyər vergisindən azaddır. Əgər ticarət yalnız elektron formada baş verirsə, bu halda elektron ticarət edən şirkətlər əlavə dəyər vergisindən azad edilir».

***«Nağdsız hesablaşmanın genişlənməsi üçün maliyyə mədəniyyəti yüksəldilməlidir»***

Maliyyə eksperti Mehdi Babayevin bizə bildirdiyinə görə, nağdsız ödənişlərin geniş dairədə baş tutması nəticəsində xüsusilə vergi orqanları üçün vergi nəzarətini həyata keçirmək asanlaşacaq və bu iş daha da operativ həyata keçiriləcək. Nağdsız ödəməyə başlanılması əsasən gəlirlərə nəzarət funksiyasını həyata keçirir və bu da vergidən yayınmanın qarşısının alınmasına gətirib çıxarır. Vergiyə cəlb olunan dövriyyənin rəsmi uçotunun maksimum səviyyəyə çatdırılması və bununla da şəffaflığın təmin olunması ən vacib məsələlərdəndir. Əhalinin gəlirləri istiqamətlərində ticarətin və xidmətlərin yeri heç də az deyil və bu gün kifayət qədər pərakəndə və topdansatış ticarətlə məşğul olan sahibkar ordusu mövcuddur: «Vergitutma obyekti kimi həmin sahibkarların dövriyyədən gəlirləri əsas rol oynayır və nəzərə alsaq ki, əhali ilə aparılan hesablaşmalar zamanı nəzarət kassa aparatlarından istifadə olunsa da, bu, birtərəfli nəzarəti həyata keçirə bilər. Müştəri tərəfindən alınmış malların, işlərin və xidmətlərin dəyəri nağd ödəmə kartları ilə ödənildiyi halda isə baş vermiş münasibətlər satıcı və alıcı tərəfindən texniki vasitələrin köməyi, yəni pos-terminal və ödəmə kartları ilə həyata keçirilir. Bu zaman aparılmış əməliyyat tərəflərin iradəsindən və ya istəyindən asılı olmayaraq bütövlükdə rəsmi qeydiyyata alınır və digər müvafiq orqanlarda da həmin qeydiyyata nəzarət edilməsi mümkün olur. Deməli, hər hansı dövriyyə yayınmasından və bununla da vergidən yayınmadan söhbət gedə bilməz». Amma əhalinin nağdsız ödənişlərin aparılması prosesinə doğru meyilləndirilməsi o qədər də asan deyil. Ekspert qeyd edir ki, bununla belə, heç kimin bu vasitələrdən istifadə etməkdən imtina etməyəcəyi barədə düşünmək olar, çünki bu üsul daha rahatdır və mədəni xarakterə malikdir. Lakin, bu əməliyyatların təhlükəsizliyinin təminatı, bank sektoruna olan inam göstəricisi, valyuta məzənnələrinin dəyişkənliyinin az olması və digər vacib maliyyə indikatorları əhalininin müstəqil surətdə bu məsələyə diqqətini öz-özünə artıra bilər. Bu isə ümumilikdə bir maliyyə mədəniyyətidir və vətəndaşlarda bu mədəniyyətin formalaşması stabil maliyyə mexanizmini yaradır.

***«Avadanlıqların ucqarlarda da quraşdırılması təmin edilməlidir»***

Ruslan Atakişiyev də təklif edir ki, nağdsız hesablaşmaların ölkə iqtisadiyyatına gətirdiyi müəyyən töhfələr haqqında ictimaiyyət daha da maarifləndirilməlidir: «İctimaiyyətin bu sahədə məlumatının az olması, bəzi ucqar yerlərdə internetə çıxışın zəif olması, nağdsız hesablaşma ilə bağlı avadanlıqların ölkə ərazisi boyu tam quraşdırılması, onlara əhalinin çıxışının daha da asanlaşdırılması məsələləri həll olunmalıdır. Həmçinin bu gün əhalidə hələ də nağdsız hesablaşmaların köçürülməsində maliyyə institutlarına inamsızlıqlar müşahidə olunur».

Ekspert qeyd edir ki, burada təhlükəsizlik məsələlərinin həll olunması da mühüm əhəmiyyət kəsb edir.

**İlkin AĞAYEV,**
***«Palitra» qəzeti***

# Azərbaycan rəqabətqabiliyyətli ölkə kimi mövqeyini gücləndirir

## Respublikamız Dünya İqtisadi Forumunun «Qlobal Rəqabət Qabiliyyəti İndeksi 2013-2014» hesabatında 7 pillə irəliləyib

*Dünya İqtisadi Forumu dünya ölkələrinin rəqabət qabiliyyətliliyi səviyyəsini xarakterizə edən növbəti «Qlobal Rəqabət Qabiliyyəti İndeksi 2013-2014» hesabatını dərc edib. Hesabatın hazırlanmasında statistik məlumatlardan və dünyanın 148 ölkəsində fəaliyyət göstərən iş adamları arasında sorğunun nəticələrindən istifadə edilib. Hesabata görə, Azərbaycan iqtisadiyyatı rəqabət qabiliyyəti səviyyəsinə əsasən tədqiqatın aparıldığı 148 ölkə arasında 39-cu yerdə qərarlaşıb. Beləliklə də son bir il ərzində Azərbaycanın rəqabət qabiliyyəti indeksi 4.41-dən 4.51-ə qalxıb və ölkəmiz dünya sıralamasında 7 pillə irəliləyib.*

*İqtisadi İnkişaf Nazirliyinin (İİN) İqtisadi siyasət, təhlil və proqnozlaşdırma şöbəsinin müdiri Ədalət Muradov* «Vergilər» qəzetinə açıqlamasında bildirib ki,



Dünya İqtisadi Forumu rəqabətqabiliyyətliliyin müəyyən olunması üçün 12 göstəricidən istifadə edir. Bunlar keyfiyyət, infrastruktur, makroiqtisadi sabitlik, sağlamlıq və ilkin təhsil, ali təhsil və peşəkar hazırlıq, əmtəə və xidmətlər bazarının səmərəliliyi, əmək bazarının səmərəliliyi, maliyyə bazarının inkişafı, texnoloji səviyyə, daxili bazarın həcmi, şirkətlərin rəqabət qabiliyyəti və innovasiya potensialı üzrə meyarlardır. Sənəddə hər bir ölkə üzrə rəqabət qabiliyyətinin həm güclü, həm də zəif tərəfləri işıqlandırılır: «Azərbaycan hesabatda bütün göstəricilər üzrə yaxşı nəticələr əldə edib. Ölkəmizin iqtisadiyyatı rəqabət qabiliyyəti indeksinə əsasən, MDB ölkələri arasında birinci mövqeyini saxlayıb. Respublikamız «makroiqtisadi vəziyyət» göstəricisi üzrə dünyada 8-ci, «əmək bazarının səmərəliliyi» göstəricisi üzrə isə 30-cu yerə layiq görülüb. Son bir il ərzində ölkəmiz «texnoloji səviyyə» göstəricisi üzrə 11 pillə, «makroiqtisadi sabitlik» və «maliyyə bazarının inkişafı» göstəriciləri üzrə isə 10 pillə irəliləyib. Hesabatda Azərbaycan bəzi alt göstəricilər üzrə ilk 20-liyə daxil olub. Ölkəmiz «inflyasiyanın illik səviyyəsi» üzrə 1-ci, «işəgötürmə və işdən azad etmə praktikası» üzrə 8-ci, «ümumi milli yığımın ÜDM-ə nisbəti» üzrə 10-cu, «ümumi dövlət borcunun ÜDM-ə nisbəti» üzrə 13-cü və «qabaqcıl texnoloji məhsulların dövlət satınalması» üzrə 14-cü yerdə qərarlaşıb».

Ə.Muradovun bildirdiyinə görə, ümumiyyətlə, son illərdə Azərbaycanın Dünya İqtisadi Forumu tərəfindən hazırlanmış hesabatlarda nəticələri yaxşılaşıb. Belə ki, son 9 ildə ölkəmiz «Qlobal rəqabət qabiliyyəti indeksi» hesabatları üzrə 30 pillə - 2005-ci ildə 117 iqtisadiyyat arasında 69-cu yerdən 2013-cü ildə 39-cu yerədək irəliləyib. 2005-2013-cü illər ərzində Azərbaycanla yanaşı, MDB ölkələri arasında yalnız Qazaxıstan və Rusiyanın rəqabət qabiliyyəti indeksləri yüksəlib. Qazaxıstanın və Rusiyanın «Qlobal Rəqabət Qabiliyyəti İndeksi» hesabatları üzrə dünya sıralamasında mövqeləri 11 pillə yaxşılaşıb.

*Milli Məslisin iqtisadi siyasət komitəsinin üzvü Əli Məsimlinin* sözlərinə görə, Dünya İqtisadi Forumunun hesabatında biznesin həm daxili, həm də xarici amillər üzrə qiymətləndirilməsinə yer verilir, xarici və yerli sahibkarların iş fəaliyyəti, onların rəqabət şəraitində işi, digər dövlətlərlə əlaqələrdə rəqabətqabiliyyətliliyin təmin olunması səviyyəsi və digər indekslər nəzərə alınır: «Forum milli rəqabətqabiliyyətliliyi ölkənin və onun institutlarının orta müddətli perspektivdə iqtisadi artımın stabil templərini də müəyyən edir. Təşkilatın ümumi qiymətləndirmə və yanaşma metodologiyasına nəzər salsaq, sahibkarlığın bütün komponentləri və iş adamlarına yaradılan şərait, rəqabətin çoxnövlülüyü, antiinhisar qurumlarının biznesə dəstəyinin təsiri və bir sıra indikatorları görmək olar. Hər bir ölkənin yüksək inkişafı onun azad biznes mühiti və sahibkarlıq sektorundakı vəziyyətlə bağlıdır. Bazar iqtisadiyyatının əsas prinsiplərindən olan azad biznes və özəl sektora dövlət dəstəyi faktorları ümumi inkişafın göstəricisinə çevrilir. Azərbaycan hökumətinin təmin etdiyi sərbəst biznes mühiti ölkədəki azad sahibkarlığın inkişafını stimullaşdırır, ona geniş meydan verir. Etiraf etmək lazımdır ki, Azərbaycan hökuməti biznesə müdaxilə hallarının qarşısının alınması ilə bağlı ən radikal addımlar atıb və son illərdə azad sahibkarlığın yüksək inkişafı da məhz bu sistemli islahatların məntiqi nəticəsi sayıla bilər. Məhz bu baxımdan, təşkilatın son 5 illik yanaşma və qiymətləndirmə prizmasından çıxış etsək, islahatların genişţutumluluğuna görə Azərbaycanın xüsusi inkişaf yolu keçdiyini görmək olar.



Ölkənin rəqabəqabiliyyətlilik indeksinə təsir edən amillərdən ən başlıcası xarici investorların maraq dairəsində və yatırılan sərmayələrin həcmində də özünü göstərir. Yəni hansısa ölkədə əlverişli biznes mühiti varsa, azad rəqabət mövcuddursa, təbii ki, ora xarici sərmayədarların axını da güclü olur, bu isə ölkənin rəqabətqabiliyyətlilik əmsalını yüksəldir. Son 20 ildə Azərbaycan iqtisadiyyatına yatırılan ümumi sərmayələrin həcmi 120 milyard dollara çatıb. Sərmayələrin təxminən 55-60 faizi xarici investorların payına düşür. Artıq xarici investorlar tərəfindən ölkəmizin iqtisadiyyatına yatırılmış sərmayələrin həcmi 50 milyard dollardan çoxdur. Bu tendensiya bir daha ölkəmizdə yaradılmış əlverişli biznes mühitinin mövcudluğunu təsdiqləyir. Bundan başqa, makroiqtisadi sabitlik, biznes sektorunda qanunvericiliyin təkmilləşdirilməsi, dövlət orqanlarının fəaliyyətinin yeni dövrün meyarlarına uyğun qurulması, dövlət-biznes münasibətlərinin tənzimlənməsi, iqtisadiyyatda korrupsiya yaradan halların qarşısının alınması, şəffaflıq, idxal-ixrac əməliyyatlarının sadələşdirilməsi, azad bazar, ticarətin liberallaşdırılması, şirkətlərin müstəqilliyi və digər sahələrdə də Azərbaycan irəliləyişlər əldə edib».

Ə.Məsimli bildirir ki, beynəlxalq hesabatlarda, adətən, enerji tədarükçüsü olan ölkələrin iqtisadiyyatında qeyri-neft sektoru üzrə indikatorlara xüsusi diqqət yetirilir. Azərbaycanın da daxil olduğu MDB regionunda əsas yanacaq istehsalçıları olan Rusiya və Qazaxıstanın reytinq baxımından bizdən geridə qalmaları ölkəmizin qeyri-neft sektorunda daha çox artım meyilləri əldə edərək iqtisadiyyatın şaxələndirilməsinə nail olduğunu təsdiq edir: «Respublikamızın hesabatda mövqeyinin yaxşılaşması xarici investorların Azərbaycan iqtisadiyyatına marağının daha da artmasına, yeni sərmayə qoyuluşlarına səbəb olacaq. Yeni investisiyalar isə regionlarda yeni müəssisələrin yaradılması, əlavə iş yerlərinin açılması, məşğulluğun səviyyəsinin yüksəlməsi üçün güclü zəmin deməkdir. Eyni zamanda, bu tədbirlərin sayəsində insanların həyat şəraiti ilə bağlı sosial göstəricilər də yaxşılaşacaq».

*Vergilər Nazirliyinin Strateji araşdırmalar idarəsinin rəisi İmran Qarayevin* qeyd etdiyinə görə, ölkəmizdə azad biznesə və sahibkarlığa geniş şəraitin yaradılması Azərbaycanın beynəlxalq hesabatlarda mövqeyinin ilbəil yaxşılaşmasına səbəb olmaqdadır:



«Qloballaşan müasir dünyada iqtisadi inkişafın təmin edilməsinin ən əsas şərtlərindən biri rəqabətqabiliyyətli mühitin formalaşmasından ibarətdir. Rəqabətqabiliyyətli mühit bir tərəfdən təsərrüfat subyektləri arasında azad rəqabət yaratmaqla iqtisadiyyatın modernləşdirilməsinə, yeni texnologiyaların tətbiqinə şərait yaradır, digər tərəfdən isə istehsal olunan mal və xidmətlərin keyfiyyətini artırır. Azərbaycan hökumətinin azad biznes mühitinin təmin olunması və rəqabətqabiliyyətliliyin dərin xarakter alması ilə bağlı təsirli və kompleks islahatları hazırda daha geniş miqyas alıb. Dövlətin biznesə müdaxiləsinin tamamilə qarşısının alınması ilə bağlı həyata keçirdiyi yeni texnoloji metodlar, tətbiq edilən elektron xidmətlər, biznesin idarə olunmasında ən son informasiya texnologiyalarından istifadə, «Elektron hökumət» layihəsi və digər kompleks tədbirlər bu strategiyanın ən başlıca istiqamətləri sayıla bilər. Dünya İqtisadi Forumunun hesabatında Qlobal rəqabətlilik indeksinə görə Azərbaycanın 148 ölkə arasında 39-cu pillədə qərarlaşması çox böyük bir nəticədir. Bu göstərici iqtisadiyyatın 12 sahəsini əhatə etməklə makroiqtisadi inkişafın əsas istiqamətlərini xarakterizə edir. Makroiqtisadi stabillik göstəricisinə görə Azərbaycan 8-ci, illik inflyasiya göstəricisinə görə isə 1-ci yeri tutur. Qlobal rəqabətlilik göstəricisinə görə respublikamız MDB ölkələri arasında 1-ci yeri tutur. Bu nəticənin əldə edilməsi, ilk növbədə, Azərbaycanda həyata keçirilən uğurlu sosial-iqtisadi siyasətin məntiqi nəticəsi kimi baş verib».

**Elbrus CƏFƏRLİ**

**Azərbaycanın «Qlobal Rəqabət Qabiliyyəti İndeksi 2013-2014» hesabatında mövqeyi**

| Göstəricilər | 2013-2014 ilin hesabatı | | 2012-2013 ilin hesabatı | | Fərq | |
|---|---|---|---|---|---|---|
| | yer | bal | yer | bal | yer | bal |
| İndeks üzrə ümumi nəticə | 39 | 4.5 | 46 | 4.4 | +9 | +0.1 |
| Əsas tələblər göstəriciləri | 44 | 4.9 | 56 | 4.8 | +12 | +0.1 |
| İnstitutların keyfiyyəti | 59 | 4.1 | 63 | 4.0 | +4 | +0.1 |
| İnfrastruktur | 69 | 4.1 | 71 | 3.9 | +2 | +0.2 |
| Makroiqtisadi sabitlik | 8 | 6.4 | 18 | 6.0 | +10 | +0.4 |
| Səmərəliliyə dəstək göstəriciləri | 66 | 4.1 | 67 | 4.1 | +1 | 0.0 |
| Ali təhsil və peşəkar hazırlıq | 87 | 4.0 | 89 | 3.9 | +2 | +0.1 |
| Maliyyə bazarının inkişafı | 88 | 3.8 | 98 | 3.7 | +10 | +0.1 |
| Texnoloji səviyyə | 50 | 4.2 | 61 | 4.0 | +11 | +0.2 |
| Daxili bazarın həcmi | 72 | 3.6 | 76 | 3.5 | +4 | +0.1 |

**Qlobal Rəqabət Qabiliyyəti İndeksi: Azərbaycanın və MDB ölkələri**

| Ölkə | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 |
|---|---|---|---|---|---|---|---|---|---|
| Azərbaycan | 69 | 64 | 66 | 69 | 51 | 57 | 55 | 46 | 39 |
| Belarus | - | - | - | - | - | - | - | - | - |
| Ermənistan | 79 | 82 | 93 | 97 | 97 | 98 | 92 | 82 | 79 |
| Qazaxıstan | 61 | 56 | 61 | 66 | 67 | 72 | 72 | 51 | 50 |
| Qırğızıstan | 116 | 107 | 119 | 122 | 123 | 121 | 126 | 127 | 121 |
| Moldova | 82 | 86 | 97 | 95 | - | 94 | 93 | 87 | 89 |
| Özbəkistan | - | - | 62 | - | - | - | - | - | - |
| Rusiya | 75 | 62 | 58 | 51 | 63 | 63 | 66 | 67 | 64 |
| Tacikistan | 104 | 96 | 117 | 116 | 122 | 116 | 105 | 100 | - |
| Türkmənistan | - | - | - | - | - | - | - | - | - |
| Ukrayna | 84 | 78 | 73 | 72 | 82 | 89 | 82 | 73 | 84 |
| Ölkələrin sayı | 117 | 125 | 131 | 134 | 133 | 139 | 142 | 144 | 148 |

# Əlverişli biznes mühiti sərmayə axınlarını stimullaşdırır

Economic Cooperation Organization

Son illər Azərbaycan hökumətinin neft gəlirlərinin iqtisadiyyatın şaxələndirilməsi ilə bağlı strateji addımları qeyri-neft sektorunun aparıcı mövqeyə çıxmasına şərait yaradıb. Neftdənkənar sahələr - sənaye, informasiya-kommunikasiya texnologiyaları, turizm daha perspektivli və gələcək tərəqqi üçün mühüm sektorlar sayılır. Bundan başqa, özəl sektorun yüksək inkişafı qarşıdakı onillik üçün güclü investisiya axınına yol açır. Hökumətin neft gəlirlərini qeyri-neft sektorunun inkişafına və insan kapitalına yönəltməsini təqdir edən «EcoMod Networking» şirkətinin prezidenti Əli Bayar bildirib ki, Azərbaycanda elmi biliklərə əsaslanan iqtisadiyyatın güclü təməlləri qoyulub.

İqtisadi Əməkdaşlıq Təşkilatına (İƏT) üzv ölkələrin İqtisadi Beyin Mərkəzlərinin I Bakı Forumunda çıxışı zamanı Ə.Bayar qeyd edib ki, Azərbaycan hökuməti ölkədə makroiqtisadi sabitliyin saxlanması, milli iqtisadi potensialın artırılması, neft sektoru amilinin azalması və qeyri-neft sektorunun inkişafı, əlverişli investisiya və biznes mühitinin yaradılması siyasəti yürüdür. Bildirildiyinə görə, biznes mühitinin yaxşılaşdırılması ilə bağlı ardıcıl tədbirlər ölkədə sahibkarlıq fəaliyyətinin daha da genişləndirilməsinə, xarici investisiyaların ölkə iqtisadiyyatına cəlb edilməsinə, ixrac qabiliyyətinin, eləcə də rəqabət qabiliyyətli, idxalı əvəz edən məhsul istehsalının artımına əlverişli şərait yaradır. Əlverişli sərmayə mühitinin təmin olunması xarici dövlətlərin investorlarının ölkəmizə axınını da sürətləndirir, investisiya fəallığına səbəb olur.

Cənab Əli Bayar insan kapitalının inkişafında iqtisadi azadlığın və şəffaf biznes sektorunun vacibliyinə diqqət çəkərək bildirib ki, yüksək iqtisadi azadlıq, elmin və təhsilin dinamik inkişafı, rəqabətqabiliyyətli yaşayış, insan kapitalına diqqətin artırılması, innovasiya müəssisələrinin və məhsullarının payının yüksək olması, ümumilikdə innovasiyalara geniş meydan verilməsi biliklər iqtisadiyyatının baza prinsiplərini təşkil edir. Azərbaycan dövləti də öz yüksəlişini sadəcə təbii sərvətlərin gətirdiyi dividendlərlə məhdudlaşdırmır, innovativ texnologiyaların tətbiq imkanlarını genişləndirməyə, biliklərə əsaslanan elmtutumlu iqtisadiyyatın formalaşdırılmasına çalışır.

«EcoMod Networking» şirkətini rəhbəri İƏT-ə üzv ölkələrin iqtisadi beyin mərkəzləri arasında elmi əməkdaşlığın gücləndirilməsi sahəsində görülmüş işləri və əldə edilmiş nəticələri yüksək qiymətləndirib, bu sahədə əməkdaşlığın iqtisadi siyasətdə və regional inteqrasiyada əhəmiyyətindən danışıb, Azərbaycanın bu istiqamətdə atdığı addımları, irəli sürdüyü təşəbbüsləri təqdir edib.

**ELBRUS**

# «Vergi dostları» şəbəkəsi genişlənir

*Cəmiyyətdə vergi mədəniyyətinin formalaşdırılması, vergi biliklərinin gənc nəsil arasında yayılması məqsədilə Vergilər Nazirliyi tərəfindən həyata keçirilən tədbirlər içərisində «Vergi dostları» layihəsinin xüsusi yeri var. Vergi ödəyicilərinin vergi xidmətlərindən istifadə imkanlarının genişlənməsi və vergilər haqqında məlumatlandırılmanın hər bir evə daxil olmasında bu layihənin rolu danılmazdır.*

«Vergi dostları» layihəsinin iştirakçıları Vergilər Nazirliyi və Təhsil Nazirliyi, Vergilər Nazirliyinin ərazi vergilər idarələri və vergi ödəyicilərinə xidmət mərkəzləri, rayon təhsil şöbələri və ümumtəhsil məktəbləri, eyni zamanda məktəb müəllimləridir. «Vergi dostları» şəbəkəsinə üzvlük isə ictimaiyyətin daha aktiv, vergi işini başa düşən yerli qəsəbə və kənd orta ümumtəhsil məktəblərinin müəllimlərinə aiddir. «Vergi dostları» kənd və qəsəbə ümumtəhsil məktəblərinin müəllimləri olmaqla könüllülük prinsipi əsasında seçilir. Seçim zamanı şəxsin ali təhsilə malik olması, ən azı 2 il pedaqoji staja malik olması, yaşı 24-dən az, 60-dən çox olmaması, işlədiyi kollektivdə və yaşadığı ərazidə müsbət imicə malik olması, vergilər barədə anlayışlara malik olmaları və bu sahədə biliklərinin artırılması istəklərinin olması və informasiya texnologiyalarından istifadə bacarığının olması nəzərə alınır.

«Vergi dostu» olmaq istəyən şəxs ərazi vergilər idarələrinə «Vergi dostları» şəbəkəsinə qoşulması barədə ərizə, şəxsiyyət vəsiqəsinin surəti, 2 ədəd 3x4 sm ölçüdə fotoşəkil, ali təhsil barədə diplomun surətini təqdim edir. Onlar üçün Vergilər Nazirliyinin Tədris Mərkəzi tərəfindən xüsusi təlim proqramı hazırlanır və onlar bu kursu yerli vergi orqanlarında keçdikdən sonra «Vergi dostları» şəbəkəsinin üzvü olurlar. Onlara «Vergi dostları» şəbəkəsinə üzvlük barədə sertifikat və döş nişanı, eyni zamanda «Vergi dostları»nın öhdəlik vərəqəsi imzalatmaqla təqdim edilir, öhdəlikləri barədə izahatlar verilir.

«Vergi dostları» şəbəkəsinin üzvlərinin öhdəlikləri yaşadığı ərazidə əhali arasında vergilərə dair məlumatlandırma, maarifləndirmə və təbliğat işlərini həyata keçirmək, Vergilər Nazirliyinin tətbiq etdiyi elektron xidmətlər barədə vergi ödəyicilərini məlumatlandırmaq, uşaq və gənclərə vergi anlayışlarını, dövlət üçün vergilərin əhəmiyyətini izah etmək, onlarda vergilərə maraq yaratmaq, məktəb şagirdləri üçün nəzərdə tutulmuş vergilərə aid dərs vəsaitlərini təbliğ etmək, tədrisinə köməklik göstərməkdir. Həmçinin ictimai tədbirlərdə, KİV-də vergiləri təbliğ edən çıxışlar etmək, vergi əxlaqını və vergi mədəniyyətini formalaşdırmaq, vergini ödəməyin hər kəsin mənəvi borcu və bu gün ödənilən vergilərin gələcəyə qoyulan sərmayə olduğunu ictimaiyyətin bütün təbəqələrinə aşılamaqdır. Bundan əlavə, «Vergi dostları»nın Vergilər Nazirliyinin internet saytı, «195» Çağrı Mərkəzi, Vergi ödəyicilərinə xidmət mərkəzləri və onlardan istifadə barədə məlumatlar yaymaq, vergilərə dair buklet, broşür, yaddaş, təqvim və başqa maarifləndirmə və təbliğat vasitələri paylamaq, ərazi vergilər idarələrində, vergi ödəyicilərinə xidmət mərkəzlərində və ümumtəhsil məktəblərində vergilərə dair metodiki kabinetlərdə təşkil olunan görüş və treninqlərdə iştirak etmək, gördüyü işlər barədə ərazi vergilər idarəsinə vaxtaşırı məlumat vermək, vergi orqanın və ya öz nüfuzuna xələl gətirən əməllərə yol verməmək kimi öhdəlikləri var. «Vergi dostları» öhdəlikləri yerinə yetirmədikdə, habelə vergi orqanının adından sui-istifadə hallarına, vergi orqanının və ya öz nüfuzuna xələl gətirən əməllərə yol verdikdə «Vergi dostları» şəbəkəsinin üzvlüyündən çıxarılır. «Vergi dostları» öhdəliklərinin digər şəxslərə həvalə edilməsi, bu öhdəliklərin yerinə yetirilməsinə məktəbli uşaqların məcburi şəkildə cəlb edilməsi yolverilməzdir.

Qeyd edək ki, hazırda «Vergi dostları» şəbəkəsinin 756 nəfər üzvü fəaliyyət göstərir.

**AYTƏN**



Mehdi Babayev
«Professional MÜHASİB» jurnalının baş redaktoru, audit üzrə mütəxəssis

Audit

# Mühasibat və vergi uçotunun fərqli xüsusiyyətləri

## *Müvəqqəti və daimi fərqlər*

**Əvvəli ötən sayımızda**

Qeyd edildi ki, mühasibat uçotu və vergi uçotu arasındakı fərqlər daimi və müvəqqəti ola bilər. Müvəqqəti fərqlərin yaranması bəzi gəlir və ya xərclərin mühasibat uçotunda tanındığı halda vergi uçotunda da bütövlükdə nəzərə alınması, lakin hər iki uçotda həmin gəlir və xərclərin müxtəlif tanınma dövlərinin olması ilə bağlıdır. Məsələn, konkret bir gəlir və ya xərc (zərər) hesabat ilinin maliyyə hesabatlarında tanındığı halda, vergi tutulan mənfəətdə (mənfəət vergisinin bəyannaməsində) sonrakı illərdə tanına bilər. Həmçinin, əksinə, gəlir və ya xərc (zərər) maliyyə hesabatlarında tanındığı hesabat ilindən əvvəlki hesabat ilində mənfəət vergisi bəyannaməsinə daxil edilə bilər.

***Müvəqqəti fərqə dair misal (xərclə bağlı)***

Müəssisəyə 100000 manat dəyərində avadanlıq alınmışdır. Sahibkar tərəfindən avadanlığın faydali istismar müddəti 5 il müəyyənləşdirilib. Mühasibat və vergi uçotunun məqsədlərinin fərqli olduğunu nəzərə alaraq rəhbərlik tərəfindən aşağıda göstərilən müxtəlif amortizasiya metodlarının tətbiq olunması nəzərdə tutulub:

*1. Mühasibat uçotu üzrə* mənfəətin müəyyən edilməsi məqsədilə Milli Mühasibat Uçotu Standartinin tələblərinə uyğun olaraq avadanlığa illik 20000 manat məbləğində düz xətt metodu ilə amortizasiya məbləğinin hesablanması.

*2. Vergi uçotu üzrə* mənfəətin müəyyən edilməsi məqsədilə Vergi Məcəlləsinin 114.3-cü maddəsinə əsasən illik 25% olmaq şərtilə azalan qaliq metodu vasitəsilə amortizasiya məbləğinin hesablanması.

Mühasibatlıq tərəfindən bu avadanlığa illər üzrə tətbiq olunan amortizasiya aşağıdakı kimi olacaqdır *(bax: Cədvəl 1)*.

Göründüyü kimi 1-ci ildə fərq mənfi 5000 manat, ikinci ildə fərq müsbət 1250 manat, üçüncü ildə fərq müsbət 5937 manat, dördüncü ildə fərq müsbət 9453 manat, beşinci ildə isə fərq mənfi 11640 manat, yəni fərqin yekunu sonda sıfra bərabər olmuşdur. Burada fərq daimi xarakter daşımadı, 4 il müvəqqəti olaraq fərqlər yaransa da, 5-ci ildə əvvəlki illərdə yaranan fərq bərpa olunduğuna görə müvəqqəti xarakter daşıdı. Fərqin müvəqqəti adlandırılması yaranan fərqin geci-tezi bərpa olunacağı (fərqin olmayacağı) ilə əlaqədardır.

Daha geniş desək, amortizasiya xərcinin 4 il ərzində yaratdığı müsbət 11640 (-5000 +1250+5937+9453) manat fərq məbləği ilə 5-ci ildə yaranan mənfi 11640 manat fərq məbləği toplanaraq sıfırlandı və bununla da 5 il ərzində təqdim olunan maliyyə hesabatlarında (mənfəət və zərər haqqında hesabatdakı) göstərilən amortizasiya xərcinin yekun məbləği ilə 5 il ərzində təqdim olunan mənfəət vergisi bəyannaməsində göstərilən amortizasiya xərcinin yekun məbləği eyniləşdi (hər iki uçotda 100000 manat oldu). Deməli, müvəqəti fərq son məqamda vergi uçotu ilə mühasibat uçotu məlumatlarının eyni olması ilə nəticələnməsinə gətirib çıxarır.

Cədvələ nəzər yetirsək görərik ki, 4 il ərzində fərqli amortizasiya xərcinin hesablanması nəticəsində mühasibat və vergi uçotunda illər üzrə fərqli qalıq dəyərləri yaranmışdır. Lakin 5-ci il ərzində sonuncu amortizasiya xərcinin hesablanması nəticəsində mühasibat və vergi uçotunda son qalıq dəyərlər də sıfırlandı.

*Cədvəl 1*

| Dövr | Mühasibat uçotu məqsədləri üçün hesablanan amortizasiya | Vergi uçotu məqsədləri üçün hesablanan amortizasiya | İllər üzrə amortizasiya məbləğlərindəki fərq | Mühasibat uçotunda qalıq dəyər | Vergi uçotunda qalıq dəyər |
|---|---|---|---|---|---|
| 1-ci il | 20000 | 25000 | -5000 | 80000 | 75000 |
| 2-ci il | 20000 | 18750 | 1250 | 60000 | 56250 |
| 3-cü il | 20000 | 14063 | 5937 | 40000 | 42187 |
| 4-cü il | 20000 | 10547 | 9453 | 20000 | 31640 |
| 5-ci il | 20000 | 31640 | -11640 | 0 | 0 |
| **Cəmi** | **100000** | **100000** | **0** | **-** | **-** |

Müvəqqəti fərqlər gəlirlərlə də bağlı ola bilər. Hər bir halda fərqlərə düzgün nəzarət edilməsi üçün Vergi Məcəlləsinin gəlirdən çıxılan xərclərin, gəlirdən çıxılmasına yol verilməyən xərclərin, həmçinin gəlirlərə aid edilən və gəlirlərin tərkibinə aid edilməyən (azad olunan) artımlar (gəlirlər) haqqında maddələrinin tələblərinə diqqət yetirilməlidir.

**Ardı növbəti sayımızda**

# Gəliri olmayan müəssisənin cari məcburi xərclərinin təsisçilər tərəfindən ödənilməsi

Xanbaba İsmayılov,
Auditorlar Palatasının üzvü

Binalara, torpaq sahəsinə, avadanlıqlara və qurğulara malik elə müəssisələr vardır ki, onlar maliyyə çətinliyi, müxtəlif fövqəladə şəraitin yaranması, yeni texnologiyaların tətbiqinin planlaşdırılması ilə əlaqədar vaxtın uzanması və sair səbəblərə görə müəyyən dövr üzrə fəaliyyətini müvəqqəti saxlamaq qərarına gəlir. Bunun üçün qanunvericiliyə uyğun olaraq müəyyən olunmuş müddətlərdən gec olmayaraq fəaliyyətini dayandırması haqqında dövlət orqanlarına (Vergilər Nazirliyinə, DSMF BŞHŞİD-yə, Dövlət Statistika Komtəsinə, yerli məşğulluq mərkəzinə) müvafiq arayış (məktub) təqdim olunmalıdır.

Arayışı (məktubu) təqdim etməklə hüquqi şəxsin rəhbərliyi dolayısı ilə bildirmiş olur ki, bu müddətdə hüquqi şəxsin nizamnamə üzrə və ya bəyan etdiyi fəaliyyət kodu üzrə və hər hansı digər formada fəaliyyəti olmayacaq və ya planlaşdırılmayıb, hər hansı gəlirin olması gözlənilmir.

Lakin fəaliyyətini müvəqqəti dayandırması müəssisənin xərclərini məhdudlaşdıra bilməz. Qeyd edildiyi kimi, əməliyyat fəaliyyəti olmayan müəssisənin torpaq, tikili və avadanlığı vardırsa, onlarla bağlı icbari ödənişlər, saxlanma, mühafizə və digər məcburi xarakter daşıyan zəruri xərcləri qaçılmazdır. Bu xərclərə aşağıdakıları aid etmək olar:

1. Torpaq sahəsi ilə əlaqədar torpaq vergisi;
2. Əsas vəsaitlərə görə əmlak vergisi;
3. Nəqliyyat vasitələri vardırsa, yol vergisi;
4. Torpaq, tikili və avadanlıqların qorunması məqsədilə mühafizə xərcləri;
5. Bina və həyətin (ərazinin) işıqlandırılması ilə bağlı elektrik enerjisi xərcləri;
6. Digər kommunal xərclər;
7. Telefon (rabitə) xərcləri;
8. Qanuni təmsilçi kimi qəbul edilmiş bir nəfər işçinin (direktorun) əmək haqqı və sosial ayırmalar;
9. Əsas vəsaitlərin amortizasiya xərcləri və digər qaçılmaz xərclər.

Göstərilən xərclər sənədləşdirilməklə həyata keçirilir və xərclərin əvəzi olaraq müəssisə tərəfindən pul ödənildiyinə görə qəbz, çek, order və ödənişi təsdiq edən digər sənədlər alınır. Lakin fəaliyyəti və gəliri olmayan müəssisə tərəfindən bu ödənişləri həyata keçirmək üçün tələb olunan pul vəsaitinin necə və haradan əldə olunması sual doğura bilər. Bu vəziyyətdə olan müəssisələrdə belə xərcləri əsasən müəssisənin sahibi (təsisçisi və ya təsisçiləri, səhmdarları) maliyyələşdirir.

Fəaliyyətini müvəqqəti dayandıran hüquqi şəxs tərəfindən çəkilmiş xərclərin baş verməsinə aydınlıq gətirilməsi məqsədilə bəzən haqlı olaraq vergi orqanları tərəfindən həmin şəxsə kameral qaydada uyğunsuzluq məktubu göndərilir. Belə halda vergi ödəyicisinin bütün bu xərclərin gəlir olmadan da çəkilməsini əsaslandıran izahlı məktubu tərtib edib göndərməsi vacibdir. Göndərilən izahlı məktublarda xərclərin təsisçi tərəfindən maliyyələşdirilməsinin göstərilməsi kifayət etmir. Maliyyələşmənin hüquqi tərəfinin izahı vergi ödəyicisi üçün daha maraqlı olmalıdır.

Təsisçidən pul vəsaitinin müəssisəyə daxil olması praktikada bir çox hallarda adi qaydada kassa mədaxil orderi tərtib olunmaqla həyata keçirilir və ya təsisçi tərəfindən birbaşa müəssisənin bank hesabına pul ödənişi edilir. Lakin çox hallarda əməliyyatın məzmunu, yəni pulun ödənişinə əsas kimi göstərilən məzmunlar «müvəqqəti maliyyə yardımı», «təsisçi vəsaiti», «hesabın möhkəmləndirilməsi» kimi və digər qeyri-dəqiq əsaslarla göstərildiyinə görə, əməliyyatın həqiqi məzmunu təhrif olunur.

Vergi orqanının izahlı məktub tələbi fəaliyyətini müvəqqəti dayandıran, həmçinin fəaliyyət göstərən hüquqi şəxsin xərclərinin təsisçi vəsaiti hesabına ödənilməsi ilə bağlı olmur, izahların məqsədi xərclərin ödənişi üçün müəssisəyə daxil olan maliyyə mənbəyinin təyinatının müəyyənləşdirilməsidir. Çünki daxilolmalarda vergitutma obyekti meydana çıxa bilər. Vergitutma obyektinin və vergi öhdəliyinin yaranması isə təsisçi ilə müəssisə arasındakı sənədləşmələrdən çox asılıdır.

Bəzən müəssisənin mühasibat uçotunda 75№-li «təsisçilərlə hesablaşmalar» hesabının kredit qalığı üzrə illərlə üst-üstə yığılan vəsaitə rast gəlmək olur. Araşdırdıqda aydın olur ki, bu vəsaitlər qeyri-dəqiq təyinatla (dəqiq məlum olmayan əsaslarla) təsisçidən daxil olması nəticəsində yaranıb. Bu vəsaitlərin sonradan bağışlanacağı, qaytarılacağı, nizamnamə kapitalına yönəldiləcəyi, əvəzində başqa mal alınacağı və ya hər hansı formada təyinatla daxil olması məlum olmadığı halda, vergi ödəyicisinin vergi və digər icbari ödənişlərlə bağlı öhdəliyi yarana bilər.

**Davamı növbəti sayımızda**

# İstanbulda İslam iqtisadiyyatı və maliyyəsinə həsr edilmiş konfrans keçirilib

*Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin (SAM) eksperti Mahir Hümbətov İstanbul şəhərində IX İslam iqtisadiyyatı və maliyyəsi mövzusunda beynəlxalq konfransda və maliyyə sistemləri üzrə beynəlxalq forumda iştirak edib.*

SAM-ın mətbuat xidmətindən «AzərTAc»a bildirilmişdir ki, konfrans və forum Türkiyə hökumətinin, İslam Əməkdaşlıq Təşkilatının, İslam Ölkələri üçün Statistik, İqtisadi və Sosial Tədqiqat və Təlim Mərkəzinin, İslam İnkişaf Bankının, İslam Tədqiqat və Təlim İnstitutunun, İslam İqtisadiyyatı üzrə Beynəlxalq Assosiasiyanın və Qətər Fondunun təşkilatçılığı ilə keçirilib və konfransın əsas mövzuları «Artım, bərabərlik və sabitlik: İslam baxışı», «Davamlı maliyyə və davamlı inkişaf» olub.

Tədbirlərdə «İslam iqtisadiyyatı və onun məzmununun İƏT ölkələrinin inkişafına təsiri», «Müqəddəs Quranda kommersiya və ticarət ifadələri», «İnkişaf indeksi: İnsan kapitalı inkişafının ölçülməsinə yeni ətraflı baxış», «Birləşmiş Millətlər Minilliyin İnkişafı Məqsədləri və Ərəb baharı», «İslam biznes etikası və dəyərləri», «Korporativ sosial məsuliyyət», «Korporativ idarəetmə» və digər mövzularda müzakirələr aparılıb.

Konfransda və Forumda Türkiyənin yüksək vəzifəli dövlət və hökumət nümayəndələri, İstanbul birjasının məsul şəxsləri, Türkiyə Müştərəklik Bankları Assosiasiyasının rəhbərliyi, Böyük Britaniyada və ABŞ-da fəaliyyət göstərən universitetlərin professorları çıxış ediblər.




vergi taqvimi

| SENTYABR | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| | | | | | | 1 |
| 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
| 9 | 10 | 11 | 12 | 13 | 14 | 15 |
| 16 | 17 | 18 | 19 | 20 | 21 | 22 |
| 23/30 | 27 | 28 | 29 | 30 | 28 | 29 |

**Qeyd:** Verginin ödənilmə və bəyannamənin verilmə müddətinin sonuncu günü təqvimdə göy rənglə seçilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilmişdir.

**Ödənilən vergi:**

20 sentyabr - «(1-1)», «3», «4», «8», «10.1», «10.2» və «10.3».

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübüdür.
Xüsusi notariuslar tərəfindən hər bir ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablamalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidir.

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün, hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.

**«4» - Aksiz vergisi:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verirlər. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**«10.2» - Sığorta müqaviləsi vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**«10.3» - Ödəmə mənbəyində tutulan digər vergilər:** Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı olan digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürülməlidirlər.

vergi cinayətləri

# Vergidən yayınma cinayət məsuliyyəti yaradır

Son dövrlər sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərin bəziləri təsis etdikləri müəssisənin bütün işlərini təkbaşına həyata keçirməyə çalışır, başqa işçi götürmək istəmirlər. Onlar həm təsisçilik edir, həm alqı-satqı və xidmət işlərini görür, həm də mühasibatlıq və digər işlərlə məşğul olurlar. Hətta elə sahibkar var ki, müəssisədə 5-6 işçinin işini öz «öhdəsinə götürməklə» daha çox qazanc əldə etməyə çalışır. Bu hallar isə əmək qanunvericiliyinə görə, qanunazidd hesab olunur. Bir şəxs müəssisənin rəhbəri olaraq həm də mühasib, satıcı, sürücü, menecer və digər işləri yerinə yetirə bilməz. Çünki sonda bu cür fəaliyyət göstərənlərin mühasibatlıq işləri və digər sənədləşmələri qanunsuzluqlarla dolu olur. Bu isə həmin şəxslərin qanun qarşısında cavab vermələri ilə yekunlaşır. Sahibkar Nazim Hacıyev kimi...

«Şabran» kiçik müəssisəsinin sahibi olan N.Hacıyev də müəssisə fəaliyyət göstərdiyi dövrdə 4-5 işçinin işini yerinə yetirib. Müəssisəni İlqar Tağıyev adlı şəxsdən notarial qaydada alqı-satqı müqaviləsinə əsasən alaraq adına keçirib, müxtəlif malların alqı-satqısı, eyni zamanda xidmətlərin göstərilməsi ilə məşğul olub. Nəticədə gəliri də pis olmayıb, dövlət təşkilatlarının sifarişlərini yerinə yetirərək xeyli qazanc əldə edib. Lakin mühasibatlıq işlərini və vergi orqanına hesabatları özü hazırlayaraq təqdim edən sahibkar, gəlirlərini gizlətmək məqsədilə sənədləri saxtalaşdırıb. Qanunazidd addımlarını xeyli müddət davam etdirən sahibkar təxminən 3 il ərzində vergidən yayınmağa nail olub. Amma Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinin əməkdaşları cinayət məsuliyəti yaradan bu halları araşdıraraq, qarşısını alıblar. İstintaq orqanları tərəfindən müəssisədə üçillik dövr üzrə aparılan səyyar vergi yoxlaması zamanı 8354 manat məbləğində sadələşdirilmiş verginin dövlət büdcəsindən yayındırılması aşkar edilib.

İş üzrə şahid qismində dindirilmiş şəxslərin izahatları nəticəsində «Şabran»la apardıqları əməliyyat sənədləri, müəssisəsinin ciddi hesabat blankları, o cümlədən qaimə-fakturalar, alqı-satqı müqavilələri, bank əməliyyatları əsasında sahibkarın əldə etdiyi gəlirləri gizlədərək vergidən yayındığı tam təsdiq olunub. N.Hacıyev təqsirləndirilən şəxs qismində istintaqa cəlb olunaraq barəsində Cinayət Məcəlləsinin 213.1-ci maddəsi ilə ittiham elan edilib, başqa yerə getməmək haqqında iltizam qətimkan tədbiri seçilib. Aparılan istintaq zamanı ona elan edilmiş ittiham üzrə özünü təqsirli bilərək törətdiyi əməlləri təsdiq edən sahibkar barədə cinayət işi baxılması üçün məhkəməyə göndərilib. Məhkəmənin hökmü ilə Nazim Hacıyev 2 il müddətinə islah işlərinə cəlb olunub.

**ELBRUS**

beynəlxalq panoram

# Vergi amnistiyası planlaşdırılır

*Kipr hökuməti milli maliyyə sisteminin likvidliyini artırmaq məqsədilə ölkədə vergi amnistiyası keçirilməsini planlaşdırır.*



Bu məqsədlə Kipr hökuməti yeni vergi amnistiyası proqramı hazırlayıb. Proqramın məqsədi Kipr sakinlərinin ölkə xaricində saxladığı və vergilərdən yayındırdığı aktivləri və fondları ölkəyə qaytarmaqdır. Hökumətin mətbuatla əlaqələr üzrə nümayəndəsi Kristos Stilianidis bildirib ki, vergi amnistiyasının bütün detalları artıq Nümayəndələr Palatasının deputatlarına təqdim edilib və razılıq olacağı halda, onun dərhal qəbulu planlaşdırılır.

Təklif edilmiş plana əsasən, amnistiya nəticəsində Kipr vətəndaşları ölkə xaricində saxladıqları aktivlərə görə gəlir vergisi üzrə yerinə yetirilməmiş öhdəliklərdən azad ediləcək. Lakin ödəyicilərə qarşı bir sıra şərtlər irəli sürülür. Belə ki, bütün gizlədlmiş kapital dərhal dövlətə qaytarılmalı, həmin pullar ölkənin milli banklarında ən azı beş il müddətinə depozitlərə qoyulmalı, yaxud da Kiprin dövlət xəzinədarlıq istiqrazlarının alınmasına sərf edilməlidir.

K.Stilianidis qeyd edib ki, hökumət amnistiyanın planlaşdırılması zamanı bu mexanizmlərin sonradan yenə də vergi ödəmələrindən yayınma üçün istifadə edilməməsinə xüsusi diqqət ayırıb.

Ekspertlər hələlik amnistiyanın gedişində bəyan edilə biləcək gəlirlərin həcmi barədə danışmağa çətinlik çəkirlər, lakin Kiprin maliyyə sistemi hazırda öz likvidliyinin möhkəmləndirilməsinə ehtiyac duyur. Hökumət amnistiya prosesində əldə ediləcək istənilən əlavə vəsaitləri milli iqtisadiyyatın sağlamlaşdırılmasına yönəltmək niyyətindədir.

# 40-dan çox futbol klubu maliyyə fırıldaqlarında şübhəli bilinir

*İtaliya polisi maliyyə fırıldaqları ilə bağlı sənədlərin araşdırılması üçün 41-dək futbol klubunun ofisində axtarış aparıb. Hüquq-mühafizə orqanları futbol klublarının maliyyə fırıldaqlarında iştirakından, vergi ödəmələrindən yayınmaqda və çirkli pulların yuyulmasında şübhələnir. Hazırda polis klublar arasında transfer müqavilələrini, həmçinin futbolçularla və agentlərlə müqavilələri araşdırır.*

Axtarışlar A seriyasının 18 klubunda, B seriyasının 11 komandasında və aşağı divizionlarda oynayan 12 klubun ofislərində aparılıb. Həmçinin on iki agent şirkətin də ofislərində axtarışlar keçirilir. Polisin məlumatında deyilir ki, axtarışlar üçün sanksiyanı Neapol məhkəməsi verib. Məhkəmə klubların vergilərdən yayınması, maliyyə sənədlərinin saxtalaşdırılması, çirkli pulların yuyulması ilə bağlı araşdırmalar aparır.

Hüquq-mühafizə orqanlarının futbol klublarına qarşı tədbirləri 2006-cı ilin mayından başlanıb. İtalyan klublarının yüksək vəzifəli menecerlərinin telefon söhbətlərinin dinlənilməsi nəticəsində ciddi qanun pozuntularının olduğu üzə çıxıb. Söhbət hakimlərin ələ alınması, dopinqin tətbiqi, qeyri-qanuni mərc oyunlarının təşkili, eləcə də oyunçu bazarında maliyyə fırıldaqlarından gedir. Sonuncu məsələdə Zinəddin Zidan, Fabio Kannavaro və Zlatan İbrahimoviç kimi ulduzların da adları keçir.

# Vergi borcu olanların vətəndaşlıqdan imtina etməsi asan olmayacaq

*ABŞ-da daxili təhlükəsizlik haqqında qanunvericiliyə bir sıra dəyişikliklər planlaşdırılır. Belə ki, vergi öhdəliklərindən yayınmaq məqsədilə ABŞ-ın vətəndaşlığından və ya yaşamaq üçün icazə sənədi olan qrinkarddan imtina etmiş şəxslərə ABŞ ərazisinə daxil olmağa icazə verilməyəcək.*

Qeyd etmək lazımdır ki, ABŞ vətəndaşlığından imtina edilməsi kifayət qədər mürəkkəb prosedurdur və hər hansı vergi öhdəliklərinin yerinə yetirilmədiyi aşkarlanarsa, çox ciddi nəticələrə səbəb ola bilər.

Ümumiyyətlə, dünya praktikasında vətəndaşlıqdan imtina zamanı vergi öhdəliyinin yerinə yetirilməsi formaları geniş və müxtəlifdir. «Cıxış vergisi» (exit tax) adlanan belə vergilər ölkənin vergi rezidentliyini itirmək istəyən fiziki şəxs tərəfindən dövlət büdcəsi ilə hesablaşma vaxtı verilən son ödənişlərə deyilir. Məsələn, Almaniyada ölkəni tərk etmiş şəxs hələ 10 il ərzində əldə etdiyi gəlirlərin əksəriyyətindən vergi ödəməyə məcburdur. Belə gəlirlərə offşor zonalarda, beynəlxalq və ya xarici trastlarda əldə edilmiş gəlirlər də daxildir.

# Mənfəət vergisi dərəcəsinin azaldılması gözlənilir

*Belarus Respublikasının Maliyyə Nazirliyi Vergi siyasəti və büdcə gəlirləri Baş İdarəsinin rəisi Dmitri Kiyko bildirib ki, mənfəət vergisinin dərəcəsi şirkətlərin qeydiyyat və fəaliyyət yerinin seçim prosesinə birbaşa təsir etdiyindən həmin verginin səviyyəsi bu və ya digər dövlətin iqtisadiyyatına investisiya qoyulması barədə qərarların qəbul olunmasına da təsir edir.*

«Mənfəət vergisinə Avropa iqtisadi məkanında iqtisadiyyatın rəqabətə davamlılığını və investisiya cəlbediciliyini təmin edən əsas tədiyyə növü kimi baxılır. 2012-ci ildən onun səviyyəsi 18% müəyyən edilib. Rusiyada və Qazaxıstanda bu verginin dərəcəsi 20%-dir», - deyə D.Kiyko qeyd edib.

Xatırladaq ki, 2012-ci ilin yanvarından Belarus mənfəət vergisinin dərəcəsini 6% - 24%-dən 18%-ə qədər azaldılıb. Maliyyə Nazirliyində hesab edirlər ki, gələcəkdə mənfəət vergisinin səviyyəsinin bir qədər də aşağı salınması haqqında məsələyə baxıla bilər. «İnvestisiya şərtlərinin yaxşılaşdırılması üçün orta müddətli perspektivdə Belarusda mənfəət vergisinin əlavə olaraq azaldılması, eyni zamanda kompensasiya tədbirlərinin qəbulu haqqında məsələyə baxıla bilər», - deyə D.Kiyko bildirib.



# İtaliya yüksək sürətli ticarətə vergi tətbiq edib

***İtaliya ilk ölkə olaraq yüksək sürətli alqoritmik ticarətə (HFT) vergi tətbiq etmişdir.***

Qeyd edək ki, HFT kompüter texnologiyalarından istifadə etməklə həyata keçirilən ticarət sistemidir. Bu sistem səhmlərin bazara axınının millisaniyə ərzində baş verməsini təmin edir. Espertlər bütün dünyada bu sahə üzrə tənzimləmələrin daha da sərtləşəcəyini gözləyirlər. Həmçinin, İtaliya hökuməti səhmlər üzrə törəmə əməliyyatlara da vergi tətbiq etmişdir. Beləliklə, hökumət fevral ayında bəyan olunan maliyyə əməliyyatlarına verginin mərhələli tətbiqini həyata keçirəcək. Ekspertlər hesab edirlər ki, avrozonada bu prosesi başa çatdıracaq ilk ölkə İtaliya olacaq. Dövlət yüksək sürətli ticarətçilərə əqdlərin dəyişilməsində və ya ləğv edilməsində müəyyən hədlər qoymuşdur. Əgər ticarətçilər bu hədləri keçərlərsə, hər növbəti 0,5 saniyədən az müddətə aparılan dəyişikliyə və ya ləğvə görə 0,02 faiz dərəcəsi ilə vergi ödəməli olacaqlar. Onu da qeyd etmək lazımdır ki, Avropa Birliyinin əksər ölkələri 2014-cü il ərzində səhmlər üzrə törəmə əməliyyatlara vergi tətbiq etmək niyyətindədirlər.

# Vergi qalmaqalı Vatikan bankirlərinin istefasına səbəb olub

*Vatikan bankı növbəti vergi qalmaqalına tuş gəlib. Bu, artıq ikinci belə hadisədir. Bir qədər əvvəl bank rəhbərlərindən birinin pul vəsaitlərinin qaçaqmalçılığı ilə məşğul olduğu aşkarlanmışdı.*



Vatikan bankının vergi ödəmələrindən yayınma sxemlərində fəal istifadə olunduğu barədə məlumatlar ortaya çıxdıqdan sonra bankın direktoru Paolo Kipriani və onun müavini Massimo Tulli istefaya gediblər. Buna səbəb İtaliyaya 20 milyon avro nağd pul vəsaitinin qeyri-leqal idxalı ilə bağlı qalmaqalda bankın aparıcı mühasibi Nunzio Skaranonun saxlanılması səbəb olub. Bank nümayəndəsi zəngin İsveçrə müştərilərinin birinin adından külli miqdarda pulu ölkəyə gətirərək sonradan onu Vatikan bankında məxfi depozit hesablarında yerləşdirməyə cəhdə ittiham olunub. İtaliya polisi Vatikan bankında könüllü ianələr adı altında şübhəli əməliyyatların araşdırılması işinin istintaqı zamanı N.Skaranonu bir müddət gizli müşahidə altında saxlayıb.

Polisin ciddi ittihamlarına cavab olaraq, bankın rəhbərliyi rəsmi bəyanatla çıxış edərək bildiriblər ki, bankda aparılan əməliyyatları nəzarətdə saxlayacaq yeni xidmət yaradılır və bu, vergidən yayınma halları ilə mübarizə üzrə beynəlxalq standartlara tam uyğun olacaqdır.



krossvord

**Yuxarıdan aşağı:** 1.Qırğızıstanın paytaxtı; 2.Azərbaycanda informasiya agentliyi; 3.İflas; 4.İsveçrədə şəhər; 5.Kəlbəcər rayonunda kənd; 6.Ayaqqabı təmizləmək üçün Fransada ixtira edilmiş maz; 7.Ordubad rayonunda kənd; 11.Daşınmaz əmlak növü; 13.Ali və ya orta təhsilli kənd təsərrüfatı mütəxəssisi; 15.Baltik dənizində yerləşən, İsveçə məxsus ada; 16.«Dərviş Parisi partladır» filmində Müsyö Jordan obrazını canlandırmış aktyorun soyadı; 17.Ağır atletikada istifadə olunan idman aləti; 18.Subsidiya növü; 20.Əsas küçədən ayrılan, çıxışı olmayan dar yol; 22.Dünyada ən məşhur kompüter markalarından biri.

**Soldan sağa:** 1.Şahbuz rayonu ərazisində dəniz səviyyəsindən 2500 metr yüksəklikdə yerləşən göl; 5.Başqırdıstanda çay; 8.Bavariyada şəhər; 9.Hər hansı bir fəaliyyət növünə yenilik, proqressiv ideyalar gətirən şəxsə deyilir; 10.Məşhur heykəltəraş, Azərbaycan Respublikasının xalq rəssamı; 12.Avtomobil markası; 14.İslam dininə görə kişi ilə qadın arasında başlanmış nikaha sonvermə; 16.Ənənəvi Asiya sisteminə əsaslanan silsilə fiziki məşqlər. Sanskrit dilində «yuj» sözündən götürülüb, mənası «birləşmə», «qovuşma» deməkdir. 19.Zəhərlənmənin qarşısını almaq üçün istifadə olunan dərman vasitələrinin ümumi adı; 21.Çinin şimal-şərqində çay; 23. «Azərbaycanın vergi xəbərləri» jurnalının sabiq baş redaktorunun adı. «Spektr», «Döngə», «Burulğan», «Səni axtarıram», «Bağışla» və s. telepyesləri; «Vergi mədəniyyəti» (A.F.Musayevlə birlikdə) kitabının, şagirdlər üçün «Vergilərin əhəmiyyəti və ya yeddi nağıl axşamı» (A.F.Musayevlə birlikdə) adlı dərs vəsaitinin, eləcə də bir neçə povest və hekayənin müəllifi; 24.Xocavənd rayonu yaxınlığında vertolyotun ermənilər tərəfindən vurulması nəticəsində şəhid olmuş Azərbaycan Respublikasının ilk Baş prokurorunun adı; 25.«Pop Kraliça» ləqəbli Amerika müğənnisi.

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:**

1.Xarço; 2.Rabat; 3.Saratov; 4.Nəsimi; 5.Düşes; 6.Ferrari; 7.Sentavo; 12.Şahnamə; 13.Dassler; 15.Orinoko; 16.Evrika; 18.Nurek; 20.Barıt; 21.Tunel.

**Soldan sağa:**

1.Xorasan; 5.Defis; 8.Roberts *(Culia)*; 9.Şirin; 10.Oktet; 11.Mustafa; 12.Şedevr; 14.Domino; 17.Həsənov *(Pərviz)*; 19.İrbit; 24.Adler *(Alfred)*; 25.İzopren; 26.Əsrik; 27.Apostol.

**Tərtib etdi: Rafael**

## idman

# Türkiyə Yaponiyanı üstələyə bilmədi...




*2020-ci il Yay Olimpiya Oyunlarına Tokio ev sahibliyi edəcək*

Argentinanın paytaxtı Buenos-Ayresdə Beynəlxalq Olimpiya Komitəsinin (BOK) 125-ci sessiyası başa çatmışdır. Sessiyada 2020-ci il Yay Olimpiya Oyunlarına ev sahibliyi edəcək şəhərin adı açıqlanmışdır. 2020-ci il Yay Olimpiya Oyunlarını təşkil edəcək şəhəri təyin etmək üçün səsvermədə İstanbul, Tokio və Madrid şəhərləri iştirak etmişlər. İlk səsvermə Madrid və İstanbul arasında keçirilmiş və Türkiyə paytaxtı rəqibinə qalib gəlmişdir. İkinci səsvermə isə Tokio və İstanbul arasında olmuşdur. Səslərin 60-nı toplayan Yaponiyanın paytaxtı 2020-ci il Yay Olimpiya Oyunlarına ev sahibliyi edəcəkdir. İstanbulun namizədliyinə isə 36 səs verilmişdir.

Qeyd edək ki, Bakının da 2020-ci il Yay Olimpiya Oyunlarına namizədliyi irəli sürülmüşdü. Lakin Azərbaycan paytaxtı iddiaçı şəhərlərin şort-listinə düşə bilməmişdi.

# Güləşin qələbəsi – bütövlükdə idmanın qələbəsidir!




Ötən həftəsonu bütün dünyanın diqqəti Argentinanın paytaxtı Buenos-Ayresə yönəlmişdi. 2020-ci il Yay Olimpiya Oyunlarının Yaponiya paytaxtı Tokioda keçiriləcəyi dəqiqləşəndən sonra idman həvəskarlarını güləşin Olimpiadanın proqramında qalıb-qalmayacağı düşündürürdü. Səsvermə nəticəsində güləşçiləri, güləş mütəxəssislərini və bu idman növünün azarkeşlərini sevindirən qərar qəbul olunmuşdur. Sevindirici haldır ki, Beynəlxalq Olimpiya Komitəsi (BOK) üzvlərinin güləşə yaşıl işıq yandırmasında Azərbaycan güləşinin də payı olmuşdur. Beynəlxalq Güləş Federasiyasının (FİLA) yeni prezidenti Nenad Laloviç təqdimatını Azərbaycan güləşinin London Olimpiadasında tarixi zəfərini əks etdirən foto ilə bitirmişdir. Həmin slaydda Olimpiya çempionumuz Şərif Şərifov məşqçi Firdovsi Umudovun çiynində əks olunmuşdur.2013-09-10 12:19:00

Dünən Azərbaycan Güləş Federasiyasının mərkəzi ofisində güləş idman növünün 2020-ci il Yay Olimpiya Oyunlarının proqramına daxil edilməsi ilə əlaqədar mətbuat konfransı keçirilmişdir. Konfransda Beynəlxalq Olimpiya Komitəsinin Argentinada keçirilmiş 125-ci sessiyası ilə bağlı ətraflı məlumat verilmiş və güləş idman növünün 2020-ci Yay Olimpiya Oyunlarının proqramında saxlanılmasına Azərbaycanın verdiyi töhfə yüksək qiymətləndirilmişdir.

Mətbuat konfransında, həmçinin, sentyabrın 16-dan 22-dək Macarıstanın paytaxtı Budapeştdə keçiriləcək dünya çempionatında ölkəmizi təmsil edəcək yığma komandaların heyətləri də açıqlanmışdır.

# Yeniyetmə ağır atletlərimizin Avropa birinciliyində uğuru

***Litvanın Klaypeda şəhərində 15 və 17 yaşadək yeniyetmə oğlan və qızlar arasında ağır atletika üzrə Avropa birinciliyi başa çatmışdır.***

Yarışın son günündə Azərbaycan milli komandasının üzvü Dadaş Dadaşbəyli körpücük üzərinə çıxmışdır. Əvvəlcə 142, sonra 147, sonda isə 151 kiloqramı ram edən D.Dadaşbəyli bu hərəkətdə ikinci yeri tutmuşdur.

Atletimiz təkanla qaldırma hərəkətinə də yaxşı başlamışdır. O, ilk olaraq 170 kiloqramı rahatlıqla ram etmişdir. Bu yanaşma ilə atletimiz toplamda gümüş medalı özünə təmin etmişdi. Bununla kifayətlənməyən D.Dadaşbəyli qələbə üçün yenidən körpücüyə çıxmışdır. O, 183 kiloqramı başı üzərinə qaldıraraq bu hərəkətdə Avropanın ən yaxşısı olmuşdur. Toplamda 334 kiloqram (151 kq + 183 kq) nəticə göstərən D.Dadaşbəyli Avropa birinciliyində gümüş medal qazanmışdır.

Qeyd edək ki, bundan əvvəl daha 5 atletimiz medallara layiq görülmüşdür. Ümumilikdə idmançılarımız Avropa birinciliyində 2 qızıl, 2 gümüş və 2 bürünc medal qazanmışlar.

# Dünya kuboku yarışları başa çatdı

***Bakıdakı «Elite Horse Club»da polo üzrə dünya kuboku yarışlarına yekun vurulmuşdur.***

Yarışın son günündə ABŞ-ın «Monblan» komandasını 9:6 hesabı ilə məğlub edən Böyük Britaniyanın «Bentli» komandası yarışları üçüncü pillədə başa vurmuşdur. Həlledici görüşdə isə «Çopard» (Argentina) və «Baltika» (Avropa) komandaları üz-üzə gəlmişlər. Gərgin idman mübarizəsi şəraitində keçən görüş 8:7 hesabı ilə «Baltika»nın xeyrinə yekunlaşmışdır.

Xatırladaq ki, «Polo Vətəninə qayıdır» şüarı altında keçirilən yarışda 8 komanda iştirak etmişdir. Turnirdə Azərbaycanın yalnız yerli oyunçularından təşkil olunmuş «Qarabağ», «Göyəzən», eləcə də «Milla Qrin» və «Milla Vayt» kollektivləri də mübarizə aparmışlar.

## mozaika

texnologiya

# 2020-ci ilədək satışa sürücüsüz hərəkət edən ilk avtomobillər çıxarılacaq

*Yaponiyanın «Nissan» şirkəti 2020-ci ilədək sürücüsüz hərəkət edə bilən maşınlar təqdim edəcəyinə söz verir. Bu barədə şirkətin nümayəndələri Amerikanın İrvin şəhərində keçirilmiş mətbuat konfransında bildiriblər.*






«ICTnews.az» elektron xəbər xidməti «itar-tass.com» saytına istinadən bildirir ki, «Nissan» şirkətinin məqsədi bazarı 10-12 il sonra sözügedən avtomobillərlə doldurmaqdır.

Şirkətdən bildirilib ki, sərbəst hərəkət edən avtomobillərin hazırlanmasında dünyanın Stenford və Oksford universitetləri, Massaçusets Texnologiya İnstitutu, Tokio Universiteti kimi təhsil müəssisələrinin mütəxəssisləri iştirak edirlər. «Nissan» gələn ilin yazında ilk maşın nümunələrini sınaqdan keçirmək üçün Yaponiyada xüsusi avtodrom tikəcək.

# «Facebook»un çirkin sirri açıldı



İT mütəxəssislərinin «çox çirkin sirr» alandırdıqları bu xəbər Avropa Birliyinin təcili araşdırmalara başlamasına təkan verib.

Səbəb isə «Facebook»un texniki dəstək servisinin sosial şəbəkənin istisnasız olaraq bütün istifadəçilərin profil fotoları ilə yanaşı, onların ailə şəkillərini də xüsusi arxivdə saxlamasıdır.

Milli.Az «Gizmodo»ya istinadən bildirir ki, hazırda «Facebook»un xüsusi, məxfi arxiv serverlərində 1 milyarddan artıq istifadəçinin profil fotoları var.

Bu isə «Facebook»un istifadə qaydaları və sosial şəbəkənin üzvlərinin qeydiyyatdan keçərkən təsdiqlədikləri şərtlərə kəskin şəkildə ziddir.

«Facebook» məlumat bazasından «başqa məqsədlər üçün» istifadə etmədiyini bəyan edib.

Hazırda «Facebook» istifadəçilərin fotolarını avtomatik tanıyır və yeni şəkli əvvəlki foto ilə müqayisə edir.



# «Apple» elastik noutbuklar istehsal edəcək

«Apple» korporasiyası bərk materialların emalı texnologiyasını patentləyib. Onların köməkliyi ilə yığcam texnikanın (məsələn, noutbuk) detallarının hissələrini elastik hazırlamaq olar. Müvafiq patent ərizəsi ABŞ-ın Ticarət markaları və patentlər üzrə bürosunun rəsmi saytında yerləşdirilib.

Milli.Az ictnews.az-a istinadən bildirir ki, yeni texnologiya «Interlocking flexible segments formed from a rigid material» adlanır. Amerika şirkəti bərk materiallar dedikdə metal, ərinti və plastmas nəzərdə tutur.

«Apple» sözügedən ərizəni 2013-cü ilin fevralın ortalarında ABŞ-ın Ticarət markaları və patentlər üzrə bürosuna göndərib. Bu günlərdə büro ərizə ilə bağlı müsbət qərar verib.

kainat

# Dünyada «qızıl dövrü»nün başlayacağı tarix açıqlandı!

*NASA teleskoplarla aparılan uzun müşahidələrə əsasən 4 ay sonra Günəşin maqnit sahəsinin tərsinə dönəcəyini açıqlayıb. Türkiyənin NTV telekanalının verdiyi məlumata görə, alimlər bu dəyişikliyin Yer kürəsi də daxil olmaqla, Günəş sisteminə təsir edəcəyini bəyan ediblər. İlk növbədə, Yer kürəsində hava durumu yaxşılaşacaq, Günəşin qütblərində maqnit sahələrinin dəyişməsi ilə dünyaya zərər verən şüaların təsiri azalacaq.*




Qeyd edək ki, bundan əvvəl Günəşdə maqnit sahəsi 2001-ci ildə dəyişib. Nəticədə şüalarda ionlaşmanın səviyyəsi artıb və bu da ötən dövrdə dünyada çox güclü ildırım və şimşəklərin çaxmasına, şəhərləri xarabazara çevirən fırtınalarla müşahidə olunub. Ancaq bu dəfə Günəşdə maqnit sahəsinin tərsinə dönməsi ilə alimlər dağıdıcı təbii fəlakətlərin minimuma enəcəyinə əmindirlər. Diqqət çəkən həm də odur ki, alimlər, din adamları və astrofiziklər 2014-cü ildə dünyanın müsbət mənada çox önəmli olaylara şahid olacağı məsələsində həmfikirdirlər. Başqa sözlə, dünyada bu dəfə daş, tunc deyil, «qızıl dövrü»nün başlayacağına əmindirlər. NASA-nın müşahidələri də bu proqnozları təsdiqləyəcək yönədir.

# Marsın rəngi boz imiş...



«Curiosity» robotu Marsın qırmızı yox, boz planet olduğunu müəyyən edib. Marsda gəzən «Curiosity»nin apardığı daş süxurların analizi göstərib ki, qədim zamanlarda Marsda həyat üçün şərait ola bilərdi: bir neçə santimetr dərinlikdə qazıntı yolu ilə alınmış nümunələr bütün lazımlı elementləri (kükürd, azot, hidrogen, fosfor və karbon) özündə birləşdirir.

Tədqiqatçılar qeyd edir ki, başqa planetdə qazıntı işləri ilk dəfə olaraq keçirilib. İndiyə qədər yalnız torpağın səthindən götürülmüş qrunt təbəqə təhlil edilirdi. «Curiosity» çay sistemini bitirən göl hövzəsi hesab edilən Yellounayf körfəzi adını almış ərazidə qazıntı işləri aparıb. Nümunələr bir-birini əvəz edən çox sayda quru və rütubətli dövrün mövcud olduğuna işarədir.

## Müdriklər deyib ki...

***«Hər zaman axtarışda ol - bu gün qızıl axtararkən mis taparsan, sabah mis axtararkən qızıl...»***

***Rene Dekart (1596-1650)***

